**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# KORONAVİRUS PANDEMİYASI ŞƏRAİTINDƏ AZƏRBAYCANDA GÖMRÜK NƏZARƏTİNİN TƏŞKİLİ XÜSUSİYYƏTLƏRİ ( DƏRMAN VƏ DEZİNFEKSİYA VASİTƏLƏRİ MİSALINDA )

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Süleymanov Süleyman Fəqan**

**BAKI – 2022**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**

**_________________________ imza**

**"____" _______________ 20__-ci il**

# "KORONAVİRUS PANDEMİYASI ŞƏRAİTINDƏ AZƏRBAYCANDA GÖMRÜK NƏZARƏTİNİN TƏŞKİLİ XÜSUSİYYƏTLƏRİ ( DƏRMAN VƏ DEZİNFEKSİYA VASİTƏLƏRİ MİSALINDA )"

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**İxtisasın şifri və adı:** 060401-Dünya iqtisadiyyatı

**İxtisaslaşma:** Gömrük işi

**Qrup:** 826

**Magistrant:**
**Süleymanov Süleyman Fəqan**
**______________________ imza**

**Elmi rəhbər:**
**İ.e.n., dos. Səmədova Mehriban Tofiq**
**____________________imza**

**Proqram rəhbəri:**
**i.ü.f.d., dos. Nəcəfova Kəmalə Akif qızı**
**_________________________ imza**

**Kafedra müdiri:**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**
**_____________________imza**

**BAKI – 2022**

**Elm andı**

Mən, Süleymanov Süleyman Fəqan oğlu and içirəm ki, "Koronavirus pandemiyası şəraitində Azərbaycanda gömrük nəzarətinin təşkili xüsusiyyətləri (dərman və dezinfeksiya vasitələri misalında)" mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

# KORONAVİRUS PANDEMİYASI ŞƏRAİTİNDƏ AZƏRBAYCANDA GÖMRÜK NƏZARƏTİNİN TƏŞKİLİ XÜSUSİYYƏTLƏRİ (DƏRMAN VƏ DEZİNFEKSİYA VASİTƏLƏRİ MİSALINDA)

## XÜLASƏ


**Tədqiqatın aktuallığı: Gömrük nəzarətinin ölkənin maraqlarına, iqtisadi inkişafına, təhlükəsizliyinə birbaşa təsirini nəzərə alaraq, Bu nəzarətin Covid-19 pandemiyasından əvvəl və sonrakı keçirilmə qaydaları, dəyişiklikləri və inkişaf prinsiplərinin öyrənilməsi vacibdir. Ölkənin ixrac-idxal əməliyyatlarında gömrük nəzarətinin rolu, pandemiyanın gömrük orqanlarının işinə mənfi təsiri, bu təsirlərlə mübarizədə dünya təcrübəsi və Dövlət Gömrük Komitəsinin uyğunlaşması məsələləri araşdırılmasının vacibliyi qeyd olunur.**

**Gömrük nəzarəti — gömrük işi haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə, həmçinin icrasına nəzarət Azərbaycan Respublikasının gömrük orqanlarına həvalə edilmiş, Azərbaycan Respublikasının digər qanunvericiliyinə və Azərbaycan Respublikasının dövlətlərarası müqavilələrinə riayət edilməsini təmin etmək məqsədi ilə həyata keçirilən tədbirlər toplusudur.**

**Tədqiqatın məqsədi: Dissertasiya işinin məqsədi pandemiya dövründə gömrük nəzarətinin təşkilinin keçirilməsi üsullarının qiymətləndirilməsi, eyni zamanda pandemiya dövründə dərman və dezinfeksiya vəsaitlərinin gömrük nəzarətinə cəlb olunmasının prinsiplərini öyrənməkdir.**

**İstifadə olunmuş tədqiqat metodları: Tədqiqat prosesində elmi abstraksiya, müqayisə, statistik qruplaşdırma, təhlil metodlarından istifadə edilmişdir.**

**Tədqiqatın informasiya bazası: Azərbaycan Dövlət Gömrük komitəsinin, Azərbaycan Dövlət Statistika Komitəsinin internet resurslarına, mətbuata və digər elmi əsərlərə müraciət olunmuşdur.**

**Tədqiqatın məhdudiyyətləri: Tədqiqatın həyata keçirilməsinə əngəl olan nəzəri-metodoloji çatışmazlıqlar, yetərli informasiya bazasının olmaması.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: İşin elmi yeniliyi, yeni Covid-19 pandemiyası şəraitidində gömrük nəzarətinin təşkili istiqamətləri və bu nəzarətin təkmilləşdirilməsi üzrə praktiki tövsiyələrin işlənib hazırlanmasındadır.**

**Nəticələrin istifadə oluna biləcəyi sahələr: Ölkəmizin qlobal iqtisadi sistemə inteqrasiya olduğu bu dövrdə, dünya bazarının tələblərini qarşılamaq, öz iqtisadi maraqlarını və təhlükəsizliyini qorumaq naminə gömrük işinin təşkili hər daim müasir dövrün tələbərinə, tərəfdar çıxdığımız beynəlxalq konvenisiya və müqavilələrə uyğun təşkil edilməlidir. Bunun üçün ən önəmli məqamlardan biri də gömrük nəzarətinin səmərəli təşkilinin həyata keçirilməsidir. Gömrük nəzarətinin səmərəli və düzgün təşkilinə ölkəmizin idxal-ixrac əməliyyatlarını asanlaşdırmaq üçün, inkişaf etməkdə olan Azərbaycan Respublikasının gömrük gəlirlərindən yığımını maksimallaşdırmaq üçün və cəmiyyətin sosial müdafiəsini təmin etmək üçün ehtiyac duyulur.**



***Açar sözlər: Pandemiya, gömrük nəzarəti, idxal, ixrac***

**ORGANIZATIONAL FEATURES OF CUSTOMS CONTROL IN AZERBAIJAN IN THE CONTEXT OF CORONAVIRUS PANDEMIC (ON THE EXAMPLE OF MEDICINES AND DISINFECTIONS)**

## SUMMARY

**The actuality of the subject: Given the direct impact of customs control on the country's interests, economic development and security, it is important to study the rules, changes and principles of development of this control before and after the Covid-19 pandemic. The role of customs control in the country's export-import operations, the negative impact of the pandemic on the work of customs authorities, world experience in combating these effects and the need to study the issues of harmonization of the State Customs Committee are noted. Customs control is a set of measures entrusted to the customs authorities of the Azerbaijan Republic to control the implementation of the legislation of the Azerbaijan Republic on customs, as well as other legislation of the Azerbaijan Republic and interstate agreements of the Azerbaijan Republic.**

**Purpose and tasks of the research: The purpose of the dissertation is to assess the methods of organizing customs control during the pandemic, as well as to study the principles of involvement of drugs and disinfectants in customs control during the pandemic.**

**Used research methods: Scientific abstraction, comparison, statistical grouping and analysis methods were used in the research process.**

**The information base of the research: The Internet resources of the Azerbaijan State Customs Committee, the Azerbaijan State Statistics Committee, the press and other scientific works were addressed.**

**Restrictions of research: Theoretical and methodological shortcomings that hinder the implementation of the research, lack of sufficient information base.**

**The novelty and practical results of investigation: The scientific novelty of the work lies in the development of directions for the organization of customs control in the context of the new Covid-19 pandemic and practical recommendations for improving this control.**

**Scientific-practical significance of results: At a time when our country is integrated into the global economic system, the organization of customs work to meet the requirements of the world market, to protect its economic interests and security must always be organized in accordance with modern requirements, international conventions and agreements. One of the most important points for this is the effective organization of customs control. There is a need for effective and proper organization of customs control to facilitate the import and export operations of our country, to maximize the collection of customs revenues of the developing Republic of Azerbaijan and to ensure social protection of society.**

***Keywords: Pandemic, export, import, customs control***

# İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **ÜGT** | Ümumdünya Gömrük Təşkilatı |
| **ÜTT** | Ümumdünya Ticarət Təşkilatı |
| **ÜST** | Ümumdünya Səhiyyə Təşkilatı |
| **ABŞ** | Amerika Birləşmiş Ştatları |
| **Aİ** | Avropa İttifaqı |
| **AİB** | Azad İstehlakçılar Birliyi |
| **DGK** | Dövlət Gömrük Komitəsi |
| **ƏDV** | Əlavə Dəyər Vergisi |

## MÜNDƏRİCAT

**GİRİŞ** ........ 8

**I FƏSİL. AZƏRBAYCANDA GÖMRÜK NƏZARƏTİNİN TƏŞKİLİNİN NƏZƏRİ ASPEKTLƏRİ** ........ 11

1.1. Gömrük nəzarətinin təşkilinin Azərbaycan iqtisadiyyatının inkişafına təsiri.. 11

1.2 Koronavirus pandemiyasının gömrük orqanlarının işinin təşkilinə təsiri........ 20

**FƏSIL II. KORONAVIRUS PANDEMIYASININ AZƏRBAYCANIN XARICI TICARƏTINƏ TƏSIRININ TƏHLILI** ........ 23

2.1 Pandemiya dovründə xarici ticarət göstəricilərinin təhlili ........ 23

2.2. Dərman və dezinfeksiya vəsaitləri bazarında vəziyyətin təhlili və problemlərin aşkarlanması ........ 33

2.3. Dərman və dezinfeksiya vəsaitləri bazarına bu dövrdə gömrük nəzarətinin təşkilinin əsas fərqli cəhətləri ........ 41

**FƏSIL III. ÜMUMDÜNYA GÖMRÜK TƏŞKILATININ ( ÜGT) PANDEMIYA DÖVRÜNDƏ TƏLIMATLARI** ........ 44

3.1.Pandemiya ilə mübarizədə dünya ölkələrinin təcrübəsi ( gömrük orqanları timsalında) ........ 44

3.2.Pandemiya dövründə dərman və dezinfeksiya mallarının İdxal ixracına gömrük nəzarətinin dünya təcrübəsi ........ 56

3.3. Dövlət Gömrük Komitəsinin pandemiyada uğurları və baş verə biləcək gələcək qlobal təhlükələrə qarşı hazırlığı ........ 66

**NƏTİCƏ VƏ TƏKLİFLƏR** ........ 69

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI** ........ 73

Cədvəllərin siyahısı ........ 76

Qrafiklərin siyahısı ........ 76

Şəkillərin siyahısı ........ 77

# GİRİŞ

**Mövzunun aktuallığı:** Gömrük nəzarətinin ölkənin maraqlarına, iqtisadi inkişafına, təhlükəsizliyinə birbaşa təsirini nəzərə alaraq, Bu nəzarətin Covid-19 pandemiyasından əvvəl və sonrakı keçirilmə qaydaları, dəyişiklikləri və inkişaf prinsiplərinin öyrənilməsi vacibdir. Ölkənin ixrac-idxal əməliyyatlarında gömrük nəzarətinin rolu, pandemiyanın gömrük orqanlarının işinə mənfi təsiri, bu təsirlərlə mübarizədə dünya təcrübəsi və Dövlət Gömrük Komitəsinin uyğunlaşması məsələləri araşdırılmasının vacibliyi qeyd olunur.

İxrac əməliyyatları xarici iqtisadi fəaliyyətdə malların, hazır məhsulların dövlətin gömrük ərazisindən kənara aparılması və ya xarici müştəriyə xidmətlər göstərilməsi əməliyyatlarının bir növüdür.

İdxal əməliyyatları xarici iqtisadi fəaliyyətdə malların, hazır məhsulların dövlətin gömrük ərazisinə keçirilməsi və ya xarici təchizatçılardan xidmətlər göstərilməsi əməliyyatlarının bir növüdür.

Gömrük nəzarətini aşağıdakı formalarda həyata keçirirlər:

1. əmtəələrin və onların daşındığı nəqliyyat vasitələrinin yoxlamadan keçirilməsi;
2. fərdi yoxlama;
3. gömrük məqsədlərinə lazımi informasiyanın, elektron və yazılı formalarda dokumentlərin, dövlət sərhədin buraxılış məntəqələrindən keçən malların adekvat sertifikatlarla uyğun olmasının yoxlanılması;
4. gömrük auditi;
5. fərdlərin sorğu edilməsi;
6. gömrük nəzarətindən keçməli olan əmtəələr, nəqliyyat vasitələrinə və onların yerləşdiyi yerlərə, tikililərə, gömrük anbarlarında, sərbəst zonalarda yerləşən ərazilərə və təşkilinə nəzarət gömrük heyətinə tapşırılmış fəaliyyətin həyata keçirildiyi digər yerlərə gömrük yoxlamasının keçirilməsinin təşkili;
7. patrulluğun və gömrük müşahidəsinin aparılması.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** Məlum olur ki, gömrük nəzarətinin təşkili və onun iqtisadiyyata təsirləri geniş araşdırılmış, lakin koronavirus pandemiyasının gömrük nəzarətinin təşkilinə təsirləri hələ tam dərin öyrənilməmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Dissertasiya işinin məqsədi pandemiya dövründə gömrük nəzarətinin təşkilinin keçirilməsi üsullarının qiymətləndirilməsi, eyni zamanda pandemiya dövründə dərman və dezinfeksiya vəsaitlərinin gömrük nəzarətinə cəlb olunmasının prinsiplərini öyrənməkdir.

**Tədqiqatın obyekti və predmeti:** Dissertasiyanın tətqiqat obyekti pandemiya dövründə və pandemiyaya qədərki dövrdə gömrük nəzarətinin təşkili sistemidir. Tədqiqatın predmeti isə gömrük nəzarəti sistemində pandemiya dövründə dərman və definfeksiya vasitələrinin gömrük nəzarətindən keçməsinin prinsipləridir.

**Tədqiqat metodları:** Tədqiqat prosesində elmi abstraksiya, müqayisə, statistik qruplaşdırma, təhlil və sorğu metodlarından istifadə edilmişdir

**Tədqiqatın informasiya bazası:** Azərbaycan Dövlət Gömrük komitəsinin, Azərbaycan Dövlət Statistika Komitəsinin internet resurslarına, mətbuata və digər elmi əsərlərə müraciət olunmuşdur.

**Tədqiqatın məhdudiyyətləri:** Tədqiqatın həyata keçirilməsinə əngəl olan nəzəri-metodoliji çatışmazlıqlar, yetərli informasiya bazasının olmamağı və s.

**Tədqiqatın elmi yeniliyi:** İşin elmi yeniliyi, yeni Covid-19 pandemiyası şəraitidində gömrük nəzarətinin təşkili istiqamətləri və bu nəzarətin təkmilləşdirilməsi üzrə praktiki tövsiyələrin işlənib hazırlanmasındadır.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri:** Ölkəmizin qlobal iqtisadi sistemə inteqrasiya olduğu bu dövrdə, dünya bazarının tələblərini qarşılamaq, öz iqtisadi maraqlarını və təhlükəsizliyini qorumaq naminə gömrük işinin təşkili hər daim müasir dövrün tələbərinə, tərəfdar çıxdığımız beynəlxalq konvenisiya və müqavilələrə uyğun təşkil edilməlidir. Bunun üçün ən önəmli məqamlardan biri də gömrük nəzarətinin səmərəli təşkilinin həyata keçirilməsidir. Gömrük nəzarətinin səmərəli və düzgün təşkilinə ölkəmizin idxal-ixrac əməliyyatlarını asanlaşdırmaq üçün, inkişaf etməkdə olan Azərbaycan Respublikasının gömrük gəlirlərindən

yığımını maksimallaşdırmaq üçün və cəmiyyətin sosial müdafiəsini təmin etmək üçün ehtiyac duyulur.

# I FƏSİL. AZƏRBAYCANDA GÖMRÜK NƏZARƏTİNİN TƏŞKİLİNİN NƏZƏRİ ASPEKTLƏRİ

## 1.1. Gömrük nəzarətinin təşkilinin Azərbaycan iqtisadiyyatının inkişafına təsiri

Gömrük nəzarəti — gömrük işi haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə, həmçinin icrasına nəzarət Azərbaycan Respublikasının gömrük orqanlarına həvalə edilmiş, Azərbaycan Respublikasının digər qanunvericiliyinə və Azərbaycan Respublikasının dövlətlərarası müqavilələrinə riayət edilməsini təmin etmək məqsədi ilə həyata keçirilən tədbirlər toplusu (Azərbaycan Respublikasının Gömrük Qanunvericiliyi, I cild). Yəni Gömrük nəzarəti fiziki və hüquqi şəxslər tərəfindən yüklərin, nəqliyyat vasitələrinin, valyuta və sərvətlərin idxal və ixracının müəyyən olunmuş qanun və qaydalarla tənzimlənməsi üçün gömrük orqanlarının həyata keçirdiyi lazımi tədbirlərdir. Bu tədbirlər bilavasitə olaraq ölkənin iqtisadi inkişafına təsir edir, onun maraqlarının qorunmasında mühüm rol oynayır. Əvvəllər bu nəzarət sistemi daha çox fiskal aspektlərə fokuslanmış olsa da, son dövrlərdə bu fokusun təhlükəsizlik və ətraf mühitin müdafiəsi sahəsində artdığı görünür. Bu nəzarət sistemi özlüyündə aşağıdakıları ehtiva edir:

1. Ödənməli olan rüsumlar, malların tam və düzgün xarakteristikası, mənşəyi və dəyəri
2. Təhlükəsizlik tədbirləri (qaçaqmalçılıq, tütün, narkotik, silah, terrorizmə qarşı mübarizə, saxta mallar)
3. Ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyə uyğunluq
4. Sağlamlıq tələbləri, fitosanitar, baytarlıq və keyfiyyət standartları

Əlavə olaraq gömrük orqanları mütəmadi olaraq polis və miqrasiya orqanlarının işinə dəstəkdir.

Gömrük orqanlarının vəzifəli şəxsləri tərəfindən gömrük nəzarəti həyata keçirilir. Gömrük nəzarətinin həyata keçirilməsinin əsası yük gömrük bəyannaməsidir (YGB). Gömrük nəzarətinin həyata keçirilməsi beş mərhələyə bölünür.

1. YGB-də göstərilən məlumatlara formal məntiqi nəzarət həyata keçirilir. Bunun üçün yük şöbəsi tərəfindən bəyannamənin bütün qrafalarının doldurulmasının düzgünlüyü yoxlanılır, bəyan edilmilş gömrük rejimi və malların adına müvafiq oalraq gömrük nəzarəti üçün tələb olunan sənədlərin mövcudluğu müəyyən edilir. YGB yoxlanıldıqdan sonra ona nömrə verilir və ya aşkar edilmiş səhvlərin düzəldilməsi üçün dekleranta qaytarılır.
2. YGB-də göstərilən xarici valyutada ödəniş, hesablaşma əməliyyatları nəzarət predmeti olur. Eyni zamanda xarici iqtisadi fəaliyyət iştirakçısı tərəfindən valyuta nəzarəti qanunvericiliyinə riayət olunması yoxlanılır.
3. Gömrük ödənişlərinin hesablanma dəqiqliyi, gömrük güzəştləri verilməsinin qanuna müvafiliyi yoxlanılır, ödənişlərin gömrük orqanlarının hesabına daxil olması yoxlanılır.
4. Statistika şöbəsi gömrük statistikası üçün mühüm olan qrafaların doldurulmasını yoxlayır.
5. Yük şöbəsinin səlahiyyətli vəzifəli şəxsi malın gömrük müayinəsi barədə qərar qəbul edir.

Gömrük nəzarətinin bütün mərhələləri bitdikdən sonra yük sənədinə buraxılı.a icazə verilir ştambı vurulduqdan sonra YGB nömrəsi nömrəli möhürlə təsdiqlənir. (C.Q. Nuriyev, A.Ə. Əliyev, M.S.Atakişiyev, 2012: səh-92)

Yük şöbəsinin səlahiyyətli vəzifəli şəxsi malın gömrük müayinəsi barədə qərar qəbul edir. Gömrük nəzarətinin bütün mərhələləri bitdikdən sonra yük sənədi nə Buraxılışa icazə verilir ştampı vurulur. Bu ştamp və YGB-nin nömrəsi nömrəli möhürlə təsdiqlənir.

Dinamik iqtisadi mühitdə, Gömrük nəzarəti də cəld, efektiv və müasir risk idarəetmə texnikalarına əsaslanmalıdır ki, ticarətin dinamik axınını pozmasın. Effektiv nəzarət, lüzumsuz gecikmələr və ya sahibkarlara artıq xərclərdən qaçınmaq üçün aşağıda sadalanan metodlar istifadə olunur:

1. Məlumatların mübadiləsində sahibkarlarla ilə sıx əməkdaşlıq
2. Müasir İT texnikaları və alətlərdən istifadə
3. Yüksəs ixtisaslaşdırılmış müayinə və ekspertiza avadanlıqlarından istifadə

4. Səmərəli şəkildə risklərin idarə olunması

Respublikamızın iqtisadi maraqlarını qorumaqla, xarici ticarət dövriyyəsini birbaşa tənzimləyən və fiskal funksiyanı həyata keçirən gömrük orqanı eyni zamanda büdcəni tamamlayır, iqtisadi və sosial problemlərin həllinə kömək edir.

Gömrük orqanının həmçinin iqtisadi rəqabətqabiliyyətliyiyə olan qatqısı da danılmazdır. Lakin, ilk öncə ölkələr arasında rəqabətin nə olduğunu, nəyə əsaslandığını anlamaq vacibdir. Firma səviyyəsində rəqabət dedikdə, iki biznesin eyni sənaye sahəsində biri-birilə yarışı, rəqabəti başa düşülür. Firmalar istehlakçı üçün rəqabət aparır.

Dövlətlər səviyyəsində isə rəqabətin anlamı dəyişir. Dövlətlər istehlakçı axtarışında deyil, onlar, iqtisadi və ticarət siyasətləri ilə öz mənafelərini ən yaxşı şəkildə necə qoruyacaqlarını, buna necə və hansı üsullarla nail olacaqları istiqamətində rəqabət aparır. Firmalarda olduğu kimi biri-biriləri ilə bir başa rəqabətə girmirlər. Dövlətlər səviyyəsində rəqabətdə sadəcə qalib və ya məğlub anlayışı yoxdur. Birinin qalib digərinin məğlub olmasındansa, müqayisəli üstünlük və qarşılıqlı sərfəli mübadilə, iki və daha artıq ölkənin qazanc əldə etməsinə gətirib çıxarar.

Bir neçə beynəlxalq göstərici bu iqtisadi rəqabətqabiliyyətlilyi hesablayır, və qiymətləndirir. Bunlardan ən yaxşı bilinən rəqabətqabiliyyətlilik göstəricilərindən ikisi Dünya İqtisadi Forumunun (World Economic Forum) illik Qlobal Rəqabətqabliyyətlilik Hesabatı ( Global Competitiveness Report) və İdarəetmə İnkişafı İnsititu"nun (Institute for Management Development) "Dünya Rəqabətqabiliyyətlik İlliyidir. Dünya Bankının Doing Buisness jurnalı da eyni zamanda rəqabətqabiliyyətlilik üçün göstərici kimi çıxış edir. Bu göstəricilər həm subyektiv həm də obyektiv indikatorları birləşdirərək dövlətlər arası sıralamaları tərtib edir. Subyektiv indikatorlara misal kimi bir qrup idxalçıya onların gömrük prosedurlarının səmərəliliyi haqqında fikirlərini sorğu əsasında öyrənməyi göstərmək olar. Göstərici üçün seçilmiş spesifik obyektiv və subyektiv indikatorlar, onların necə ölçülməsi qaydaları sıralamanı müəyyən edir.

Gömrük orqanı inkişafa 3 əsas üsulla təsir göstərir:

1. Ticarətin asanlaşdırılması
2. Gəlirlərin yığılması
3. Sosial müdafiə

**Ticarətin asanlaşdırılması**

Ticarətin asanlaşdırılması, biznes üçün transaksiya xərclərini daha aşağı salmaq üçün gömrük prosedurlarını daha səmərəli etmək deməkdir. Ümumdünya Ticarət Təşkilatının ticarətin asanlaşdırılması ilə bağlı açıqlaması isə beynəlxalq ticarət prosedurlarının sadələşdirilməsi və uyğunlaşdırılması.Ticarət prosedurlarına beynəlxalq ticarətdə malların hərəkəti üçün tələb olunan məlumatların və digər məlumatların toplanması, təqdim edilməsi, ötürülməsi və emalı ilə bağlı fəaliyyətlər, təcrübələr və rəsmiyyətlər daxildir şəklindədir (http://gtad.wto.org/trta_subcategory.aspx?cat=33121).

Gömrük Prosedurlarının Sadələşdirilməsi və Uyğunlaşdırılması üzrə Beynəlxalq Konvensiya digər adıyla, Kioto Konvensiyası və ya Yenilənmiş Kioto Konvensiyası Gömrük orqanlarının tənzimləmə prosedurlarını mümkün qədər səmərəli edən beynəlxalq standartlardır. Kioto Konvensiyası aşağıdakı prinsipləri açıqlayır və onları işləyib hazırlayır:

1. Gömrük fəaliyyətinin şəffaflığı və gözləntilərə uyğun olması
2. Malların bəyannamələri və onları təsdiqləyən sənədlərin sadələşdirilməsi və standartlaşdırılması
3. Səlahiyyətli şəxslər üçün sadələşdirilmiş prosedurlar
4. İnformasiya texnologiyalarından maksimum istifadə
5. Gömrük qanunvericiliyinə uyğunluğun və riayət olunmasının təmin edən minimal zəruri Gömrük nəzarəti
6. Risklərin idarə edilməsi və auditə əsaslanan nəzarət sistemi
7. Digər sərhəd xidmətləri və qurumlarla koordinasiya olunmuş əlaqələr və müdaxilələr
8. Ticarətlə tərəfdaşlıq

**Gəlirlərin yığılması**

İkinci faktor olan gəlirlərin yığılması, daha çox dolayı yolla təsir göstərir, ancaq olduqca vacibdir. Uzun müddətdir ki, dövlət tərəfindən toplanılan gəlirlər onun hakimiyyətinin, səlahiyyətinin əsas tərkib hissəsi kimi qəbul edilib. Adam Smitə isə dövlətin ədalət, müdafiə, sosial xidmət və təhsil təmin etmək üçün mövcud olduğunu deyir (Adam Smit, Xalqların sərvəti, 1776, 2010:63).

İqtisadi məhsuldarlığı artırmaq üçün sağlam, təhsilli, stabil cəmiyyətə sahib olmaq önəmli faktordur. İctimai malları olmasa, cəmiyyət, yaşayış standartları və istehsal məhsuldarlığını artırmaqda çətinlik çəkəcəkdir. Dolayı yolla burada məntiq budur ki, Gömrük dövlətin sosial fondlarının istifadə yollarına qərar verməsə də, bu fondlar üçün lazım olan gəlirlərin əsas toplayıcısıdır. Sosial və xidmət sektoru üçün lazımlı gəlirləri toplayır və beləcə də cəmiyyətin eləcə də iqtisadiyyatın inkişafına dəstək verir.

Əksər inkişaf etməkdə olan ölkələr öz funksiyaları üçün lazım olan gəlirləri toplamaq üçün gəlir vergisi əvəzinə Gömrük rüsumlardan asılıdırlar. Gömrük orqanlarının topladığı gəlirlər olmasa inkişaf etməkdə olan ölkələr öz funksiyalarını həyata keçirmək üçün lazım olan gəlirləri toplamaqda çətinlik yaşayacaqdır. Baxmayaraq ki, inkişaf etmiş ölkələrin demək olar ki heç biri artıq gəlirlərinin formalaşması üçün Gömrük rüsumlarından ilkin vasitə kimi istifadə etmirlər, inkişaf etmiş ölkələr də vaxtı ilə bu gəlirlərin toplanması üçün Gömrük rüsumlarından asılı olmuşlar. İnkişaf etmiş ölkələr də öz hakimiyyət səlahiyyətlərini və iqtisadi inkişaf üçün lazım olan infrastrukturları Gömrük rüsumları hesabına təmin etmişdir.

Azad bazar sistemində belə, elə ictimai mallar var ki, onları dövlət tərəfindən toplanan gəlirlər hesabına təmin edilməlidir, çünki özəl sektorun bu malları təmin etmək üçün yetəri qədər mənfəət stimulu yoxdur. Yəni ki, bazarda uğursuzluq hallarında dövlətin müdaxiləsi məcburi olur. Sübutlar göstərir ki, təhsil, təhlükəsizlik, müdafiə, səhiyyə və infrastruktur dövlət tərəfindən daha səmərəli və effektiv şəkildə həyata keçirilir.

**Sosial müdafiə**

Son faktor olan sosial müdafiə isə, terorizmlə mübarizə, qanunsuz- narkotik, silah, saxta mallar kimi malların dövriyyəsinin qarşısını alır, onları qadağan edir.

Gömrük orqanları cəmiyyəti və milli maraqları qorumaq naminə, istifadəsi təhlükəli malların sərhədi keçməsinin qarşısını almaqla iqtisadi inkişafa dəstək olurlar.

Bu vasitələr xarici ticarət dövriyyəsinin tənzimlənməklə və fiskal funksiya həyata keçirməklə dövlət büdcəsini tamamlayır və bununla da iqtisadi problemlərin həllinə kömək edir.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra, sərhədlərinin, iqtisadi maraqlarının və iqtisadi təhlükəsizliyinin ən mühüm xidmətlərindən olan gömrük xidmətinin əsasını 1992-ci ilin 30 yanvarında qoydu. Müstəqilliyini və dölət sərhədlərini yenidən əldə etmiş cavan respublikanın iqtisadi maraqları, təhlükəsizliyi və inkişafı baxımından gömrük xidmətinin yaranması zəruri idi. Elə məhz bu zərurətdən Dövlət Gömrük Komitəsinin əsası qoyulmuşdu. Sovet İttifaqının süqutundan sonra onun gömrük sistemindən ayrılan Gömrük Komitəsi heç bir maddi-texniki əsası mövcud olmayan tam yeni azad bir sistemə keçid etdiyi üçün bir çox çətinliklərlə qarşı-qarşıya gəldi.

Bu dövr ərzində Gömrük Nəzarətinin Təşkili Baş İdarəsinin səyləri ilə müvafiq tədbirlər planı hazırlanmış və icra edilmişdir. Bu tədbirlər ölkəmizdə gömrük işinin təşkilinin beynəlxalq normalara uyğun, səmərəli təmin edilməsi və inkişaf etdirilsini təmin etmişdir. Bu tədbirlərə respublikaya gətirilən mallara, respublikanın gömrük ərazisindən çıxarılan əmtəə və nəqliyyat vasitələrinə gömrük nəzarətinin inkişaf etdirilməsi, gömrük sənədləşməsi zamanı tələb olunan müvafiq qaydalara uyğunlaşdırılması, mal dövriyyəsinin sürətləndirilməsi və səmərəliliyinin artırılması və.s. kimi tədbirlər aiddir.

Sovet İttifaqının süqutundan sonra Azərbaycanın iqtisadiyyatı demək olar ki dağılmışdı. 1995-ci ildə ÜDM 1989-cu ildəki həmin ilin göstəricilərinin sadəcə 37%-ni təşkil edirdi. Bütün bunlara və 49%-ə çatan yoxsulluq səviyyəsinə baxmayaraq, müstəqillik illərindən başlayaraq ölkəmiz əhəmiyyətli iqtisadi dönüşüm keçirib. Ölkənin iqtisadi inkişafı çox sürətlə irəriləyib. Azərbaycan 2000-ci illərin sonlarına doğru sürətli bir şəkildə yuxarı orta gəlirli ölkələrdən birinə çevrilib. 1991-ci ildən əvvəl Azərbaycan olduqca geniş iqtisadi bazaya malik idi. Sənaye kompleksi, kənd təsərrüfatı və xidmət sektoru kifayət qədər inkişaf etmişdi.

Müstəqillik özü ilə bərabər iqtisadi çöküş də gətirdi. Moskvadan gələn maliyyələşdirmənin kəsilməsi, ticarətdə yaranan pozulma, bazar iqtisadiyyatına keçid və digər faktorlar ÜDM-in kiçilməsinə gətirib çıxartdı. Bu proses 1996-cı ilə qədər davam etmişdir. 1994-cü ildə beynəlxalq firmalarla imzalanan Əsrin Müqaviləsindən sonra ölkəyə xarici investisyaların axını oldu. Bakı-Tblisi-Ceyhan neft kəmərinin inşası ilə ölkə iqtisadiyyatına milyard dollarlar gətirdi. 1996-cı ildən başlayaraq iqtisadiyyat yüksəs sürətlə inkişafa və böyüməyə başladı. İnkişafın əsasında neftə qoyulan investisiyalar və Dövlət Neft Şirkəti ilə xarici firmalar arasında imzalanan sazişlər dururdu.

Qeyri-neft sektorunun inkişaf dərəcəsi 2000-ci illərin ortalarından başlayaraq sabit və davamlı olmuşdur. 2005-2013-cü illər arasında qeyri-neft sektoru ÜDM-də 8-10% arası artım göstərmişdir. 2010-cu ildən 2013-ə qədər qeyri-neft sektorunun inkişaf dərəcəsi neft sektorunu üstələyirdi.

Bu inkişafa dəstək kimi 1997-ci ildə yeni Gömrük məcəlləsi qüvvəyə minmişdir. Məcəllədə nəzərdə tutulan gömrük rejimləri, gömrük işinin hüquqi bazasının təkmilləşdirilməsi, onun işinin beynəlxalq standartlara uyğunluğu, gömrük rejiminə uyğun gömrük nəzarəti kimi tədbirləri ölkəmizin iqtisadi inkişafının əsas elementlərindən olmuşdur.

2019-cu ildə Respublikasının hüquqi və fiziki şəxsləri 186 xarici ölkə ilə ticarət əməliyyatları gerçəkləşdirmişdir. Məhsul ixrac olunmuş ölkə sayı 113, məhsul idxal olunmuş ölkə sayı isə 177-dir. 2019-cu ildə ölkənin xarici ticarət dövriyyəsi 24837,2 milyon dollar məbləğində qərarlaşmışdır. İxrac 14459,2 milyon dollar, idxal isə 10378,0 milyon dollar həcmində olmuşdur. Nəticədə müsbət ticarət saldosu yaranmışdır. Saldonun dəyəri 4081,2 milyon dollar təşkil etmişdir. 2018-ci illə müqayisədə xarici ticarət dövriyyəsi 7,2%, o cümlədən idxal 3,4%, ixrac 0,3% artmışdır. 2019-cu ildə ölkədən 1413,1 milyon dollar dəyərində qeyri neft-qaz məhsulları ixrac edilmişdir ki, bu da ötən ilə nisbətən faktiki qiymətlərlə 17,1%, real ifadədə isə 12,1% çoxdur (www.stat.gov.az).

**Cədvəl 1: İllər üzrə ticarət dövriyyəsi**

| İllər | Milyon ABŞ dolları ilə | | | | Əvvəlki illərə nisbətən faktiki qiymətlərlə, faizlə *) | | |
|---|---|---|---|---|---|---|---|
| | Ticarət dövriyyəsi | İdxal | İxrac | Saldo | Ticarət dövriyyəsi | İdxal | İxrac |
| 2016 | 21,946.7 | 8489.1 | 13,457.6 | 4,968.5 | 112.9 | 89.6 | 129.7 |
| 2017[2] | 24,263.8 | 8,783.3 | 15,480.5 | 6,697.2 | 89.3 | 83.8 | 92.9 |
| 2017 | 24,103.3 | 8,783.3 | 15,32.0 | 6,536.7 | 85.2 | 83.8 | 86.1 |
| 2018[2] | 31,782.7 | 11,465.9 | 20,316.8 | 8,850.9 | 100.5 | 100.2 | 100.7 |
| 2018 | 30,955.0 | 11,465.9 | 19,489.1 | 8,023.2 | 96.1 | 100.2 | 93.8 |
| 2019[2] | 33,065.3 | 13,667.5 | 19,397.8 | 5,730.3 | 96.1 | 93.5 | 97.6 |
| 2019 | 33,302.7 | 13,665.5 | 19,635.2 | 5,967.7 | 96.8 | 93.5 | 98.8 |
| 2020[2] | 24,201.1 | 10,730.7 | 13,470.4 | 2,739.7 | 78.1 | 64.0 | 88.0 |
| 2020 | 24,471.3 | 10,730.7 | 13,740.6 | 3,009.9 | 72.8 | 64.0 | 78.9 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi**,** www.stat.gov.az (10.12.21)

Cədvəl 1-dən də göründüyü kimi Covid-19 pandemiyası bütün dünyada eləcə də Azərbaycan Respublikasında iqtisadiyyatın kiçilməsinə səbəb olmuş, idxal-ixrac əməliyyatlarına təsir etmişdir. Belə ki 2020-ci ildə Respublikanın hüquqi və fiziki şəxsləri 167 ölkə ilə ticarət əməliyyatları gerçəkləşdirmişdir. Məhsul ixrac olunan ölkə sayı 100, məhsul idxal olunan ölkə sayı isə 155 olmuşdur.

**Qrafik 1: Məhsul ixrac olunmuş ölkələr**




**Mənbə**: Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi, customs.gov.az

Qrafik 1-dən göründüyü kimi məhsul ixrac olunmuş ölkələrdə İtaliya 32% ilə ən böyük paya malikdir. İtaliyadan sonra 19.2% ilə Türkiyə, 5% ilə Rusiya Federasiyası, 4.2% ilə İsrail, 3.7% ilə Hindistan, Xorvatiya, Yunanistan, Çin, Gürcüstan, Ukrayna və 11.9% ilə qalan digər ölkələr gəlir.

2020-ci ilin ilk aylarında Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsi 11750.2 milyon dollar həcmində olmuşdur. Dövriyyənin 57.5 faizi ixracın, 42.5 faizi isə idxalın payına düşür. İxrac 6760.7 milyon dollar həcmində olmuşdur. İdxal isə 4985.5 milyon dollar təşkil etmişdir. Ticarət əməliyyatlarından 1771.2 milyon dollar dəyərində müsbət saldo yaranmışdır.

2020-ci ilk aylarında qeyri neft-qaz sektonunun məhsullarının ixracından əldə olunan gəlirlər əvvəlki illə müqayisədə 6,9 faiz, real ifadədə isə 14,0 faiz azalmışdır. Bu göstəricilərlə ixracdan əldə olunan gəlir 911,9 milyon dollar həcmində olmuşdur (www.stat.gov.az).

## 1.2. Koronavirus pandemiyasının  gömrük orqanlarının işinin təşkilinə təsiri

Qloballaşma dövründə dünya ölkələri ilə sıx iqtisadi və siyasi münasibətdə olan Azərbaycan Respublikası da, pandemiyanın gətirdiyi çətinliklərlə üzləşməli və bu çətinliklərə qarşı tədbirlər görmək məcburiyyətində qaldı. Azərbaycan Respublikasının vətəndaşlarının və sərhədlərinin qorunmasında əsas rollardan birini

üstlənən Dövlət Gömrük Komitəsi də bu tədbirlərin keçirilməsinin əsas obyektlərindən biri olmuşdur. Azərbaycan Respublikasi Nazirlər Kabinetinin Azərbaycan Respublikasının ərazisində xüsusi karantin dövründə iş rejiminin tənzimlənməsi barədə 31 mart 2020-ci il tarixli Qərarına əsasən Azərbaycan Respublikasının ərazisində elan edilmiş xüsusi karantin dövründə rəhbərləri və zəruri halda işçiləri işə cəlb edilən dövlət orqanlarının və qurumlarının siyahısındakı dövlət orqanlarından biri də elə məhz Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi idi.

Koronavirus ilə mübarizə çərçivəsində Dövlət Gömrük Komitəsinin aşağıdakı tədbirləri görmüşdür:

1. Gömrük sərhəd buraxılış məntəqələrində, ərazi və ixtisaslaşdırılmış gömrük idarələrində xidmət aparan əməkdaşların koronavirus (COVİD-19) infeksiyasına yoluxma riskinin azaldılması məqsədilə müvafiq fərdi mühavizə vasitələri və digər ləvazimatlarla təmin edilməsi işinin təşkili.
2. Koronavirus (COVID-19) pandemiyası ilə əlaqəli yaranan suallara cavab verilməsi üçün Qaynar xəttin fəaliyyəti davam edir.
3. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin tərkibində fəaliyyət göstərən PZR laboratoriyasında Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Aparatının bütün struktur bölmələrinin və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturuna daxil olan Ərazi və İxtisaslaşdırılmış Gömrük İdarələrinin əməkdaşlarının koronavirus (COVİD-19) testlərinə cəlb olunmasının təşkili.
4. Koronavirus Covid-19 infeksiyasına yoluxmuş gömrük əməkdaşları ilə təmasda olan digər gömrük əməkdaşları barədə məlumatların, onların müayinədən keçirilmə tarixi və nəticələrinə dair məlumatların aidiyyəti üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Respublika Gigiyena və Epidemiologiya Mərkəzinə ötürülməsi.
5. Azərbaycan Respublikasının Baş Naziri cənab Əli Əsədovun 18.07.2020-ci il tarixli, 10/763 nömrəli göstərişi ilə daxil olmuş Xüsusi karantin rejimi dövründə dövlət orqanlarında (qurumlarında) koronavirus (COVİD-19)

infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə sanitariya-epidemioloji və profilaktik tələblərinə əsasən, eyni zamanda koronavirus (COVİD-19) infeksiyasının yayılmasının qarşısının alınması istiqamətində aparılan tədbirlərin daha da gücləndirilməsinə ciddi nəzarət edilməsi məqsədilə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Aparatının bütün struktur bölmələrinə və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturuna daxil olan Ərazi və İxtisaslaşdırılmış Gömrük İdarələrinə müvafiq qaydada göstəriş məktubları göndərilmişdir.

Koronavirus (COVİD-19) infeksiyasının yayılmasına qarşı profilaktik tədbirlərin aparılması çərçivəsində gömrük sərhəd buraxılış məntəqələrindən keçən şəxslərin və gömrük əməkdaşlarının məlumatlandırılması və təlimatlandırılması üçün nəzərdə tutulmuş, Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələri əsasında posterlər hazırlanmış və gömrük sərhəd buraxılış məntəqələrinə göndərilmişdir. (https://customs.gov.az).

Gömrük Komitəsi Ümumdünya Gömrük Təşkilatı ilə sıx əməkdaşlıq çərçivəsində videokonfranslar keçirib. Covid-19 pandemiyası ilə bağlı təhlükəsizlik, gömrük işi, gömrük nəzarətinin təşkili məsələləri ilə bağlı müzakirələr aparılıb. Eyni zamanda pandemiyanın davam etdiyini nəzərə alaraq yaranmış mövcud şəraiti qiymətləndirmək, Ümumdünya Gömrük Təşkilatının işinin davam etdirməsinə imkan verəcək alternativ mexanizmləri öyrənmək məqsədilə videokonfranslar keçirilib.

2020-ci ilin Mart ayında pandemiyanın mənfi təsirlərini kiçiltmək, makroiqtisadi sabitliyi, işçiləri və biznes mühitini qorumaq məqsədilə plan hazırlandı. Bu tədbirlər üçün dövlət büdcəsindən 2 milyard dollar ayrılmışdır. 20-dən çox dövlət xəstəxanaları COVID-ə yoluxmuş xəstələrə tibbi yardım göstərməyə başladı. Bu tədbirlərlə yanaşı, İyunun 11-dən etibarən Mərkəzi Gömrük Hospitalı yalnız koronaviruslu xəstələri qəbul etməyə başlayıb. Dövlət qurumunun tabeliyində olan nüfuzlu xəstəxana koronavirusla mübarizədə hökumətə kömək etmək məqsədilə öz işini tamamilə yenidən qurub.

# FƏSIL II. KORONAVIRUS PANDEMIYASININ AZƏRBAYCANIN XARICI TICARƏTINƏ TƏSIRININ TƏHLILI

## 2.1. Pandemiya dovründə xarici ticarət göstəricilərinin təhlili

Xarici ticarət dövriyyəsi iqtisadiyyatın faktiki vəziyyətini göstərir. Nə alıb-satdığın və nə miqdarda alıb, nə qədər satdığın bir çox şeyi təyin edir. Bu, konkret iqtisadi gücün göstəricisidir. COVİD-19 pandemiyası qlobal iqtisadiyyatı ona görə yavaşlatdı ki, ticarət azaldı, beynəlxalq ticarət əlaqələri dayandı və istehsal azaldı. Bir çox ölkələrin xarici ticarət əlaqələrində mənfi saldonun hökm sürmə səbəbi odur ki, istehlak olduğu vəziyyətinə qayıdıb, istehsal isə əvvəlki halına qayıtmayıb.

Ölkəmizin xarici ticarət dövriyyəsindəsə müsbət saldo yanvar-iyul aylarındakı statistikaya əsasən 5 milyard ABŞ dollarından artıq olmuşdur. Bu göstərici ölkədə makroiqtisadi sabitlik üçün lazım olan önəmli şərtlərdən biridir. Müsbət saldonun yaranmasının əsas şərtləri isə maliyyə sabitliyi, dövlət büdcəsi gəlirliyi, istehsalın artım tempidir. Deмək mümkündür ki, əldə etdiyindən nə qədər az xərcləsən o qədər də iqtisadi sabitlik və maliyyə dayanıqlığı əldə edərsən . Təki, bunun üçün lazımi şərtlər ödənilsin.

Ölkə iqtisadiyyatında müsbət meyillər aprel-may aylarından başlayaraq özünü biruzə verməyə başladı. Buna səbəb isə pandemiyanın səngiməsi, neftin qlobal bazar dəyəri, qeyri-neft və qaz sektorunun inkişafı və iqtisadi hərəkətliliyin bərpa olunmasıdır. Bu siyahıda neft və təbii qazın qlobal bazar qiymətləri ilk sıradadır.

Koronavirus pandemiyasının ölkəmizə göstərdiyi, xüsusən, mənfi təsirlərin özünü ən çox biruzə verən, ölkənin iqtisadi sferasına göstərdiyi təsirlər olmuşdur. 2020-ci ilin əvvəllərindən dünyaya yayılmağa başlayan koronavirus (COVİD-19) pandemiyasının iqtisadiyyatın bir çox sektorlarında yaratdığı problemlər, xarici ticarətə də mənfi təsir göstərmişdir. Koronavirus (COVİD-19) pandemiyasının yayılması və təsirlərinə qarşı Azərbaycan Respublikası da sürətli və adekvat cavab vermişdir.

Pandemiyanın qlobal iqtisadiyyata mənfi təsirləri Azərbaycanın ixracına da öz təsirini göstərməkdədir. 8 ayın yekununa əsasən, ixracın ümumi məbləği azaldığı kimi, ixrac olunan mal çeşidində də azalma qeydə alınıb. Hesabat dövründə Azərbaycandan 2475 adda mal ixrac olunub ki, bu da 2019-cu ilin eyni dövrü ilə müqayisədə 173 adda mal və ya 6,5 faiz azdır.Əsas ixrac məhsulu olan xam neftin ixracında azalma olsa da, təbii qaz ixracında həcm etibarilə 21%, dəyər ifadəsi ilə 20% artıb.

**Qrafik 2: İxrac**




**Mənbə**: Dövlət Gömrük Komitəsi, 2021

Qrafik 2-də verildiyi kimi Dövlət Gömrük Komitəsinin statistikasına görə ixracın ən böyük payı 30,4 faiz ilə İtaliya məxsusdur. 18,9% ilə Türkiyə ikinci, 5,2% ilə Rusiya üçüncü, 3,8 faizilə Yunanısta isə dördüncüdür. Digər sıralarda isə hər biri 3,4%-lə Xorvatiya və Gürcüstan, 3,3% ilə Hindistana, 3,2% İsrailə, 3,1% ilə isə Çin dayanır. Qrafikin davamında 2,6% Ukraynaya, 2,4% İspaniyaya, 2,3% Tunisə, üçü

də 1,7%-lə Portuqaliya, Almaniya və Çexiyaya, 1,6% İsveçrədir. Qalan yerləri isə 11.3% ilə digər ölkələrə ixrac olunmuş məhsullar tutur.

**Qrafik 3: Qeyri neft-qaz məhsullarının ixracı**




**Mənbə**: Dövlət Gömrük Komitəsi, 2021

Qrafik 3-də göründüyü kimi qeyri neft-qaz məhsullarının ixracında ilk yeri 35.3% ilə Rusiya Federasiyası tutur. Türkiyə 20,6% ilə ikinci, İsveçrə 9,2% ilə üçüncüdür. Qonşu ölkə Gürcüstana ixracın həcmi ümumi ixracın 8,1%-i həcmində olmuşdur. Digər ölkələr isə 2.6% ilə Ukraynaya, 2.2% ilə İtaliya, 1.9% ilə Çin, 1.8% ilə Yunanıstan, 1.4% ilə Özbəkistan və eyni faiz dərəcəsi ilə İran olmuşdur.

Xarici ticarət dövriyyəsində İtaliya birinciliyini qorusa da, iki ölkə arasında ticarətin məbləğində azalma olub. Rusiya ilə ticarət dövriyyəsi də azalmaya məruz qalıb. Türkiyə ilə ticarətin həcmi isə artıb.

**Qrafik 4: İdxal**




**Mənbə**: Statistika Komitəsi, 2021

2020-ci ilin 8 ayında 7136 adda mal çeşidi idxal edilib. Bu göstəricilər ötən illə müqayisədə 6 adda mal və ya 0,1 faiz çoxdur. İdxal edilmiş malların bütün dəyərində 16.8 faizi ilə Rusiya birinci, 12 faiz ilə Türkiyə ikinci, 10.5 faiz ilə Çin üçüncüdür. Digər yerlərdə İsveçrə 9%, ABŞ 5.6%, Almaniya 5.2%, Ukrayna 3.4%, İran 3.3%, Kanada 2.9%, İtaliya 2.7%, Avstraliya 2.2%, Fransa 1.8%, Birləşmiş Krallıq 1.7%,

Yaponiya 1.6% durur. Qalan digər ölkələrin ümumi dəyərdə ifadəsi isə 21,3 faizə bərabərdir.

Bu dövrdə düyü, kərə yağı, süd kimi məhsulların idxalı artıb. Həmçinin avtomobil idxalında artım davam edib. Buğda isə idxalı azalan məhsulların arasında yer alıb. Ayrıca, ümumi idxalın ötən ilə nisbətən azalması Dövlət Neft Fonduna məxsus qızılın ölkəyə gətirilməsi hesabına 2019-cu ildə idxalın əvvəlki illə müqayisədə artması ilə bağlıdır. Yəni ki, 2019-cu ilin 8 ayında 2018-ci ilin eyni dövrü ilə müqayisədə 36,69 faiz artım olmuşdu. Bu mənada 2018-ci illə müqayisədə 2020-ci ilin 8 ayında idxalın cəmi 2,52 faiz azaldığı məlum olur (https://www.stat.gov.az/news/index.php?id=4810, 2021).

Ölkə iqtisadiyyatında baş verən hadisələr xarici ticarətə birbaşa təsir göstərdiyi kimi, koronavirus pandemiyası da xarici ticarət dövriyyəsinə təsirsiz ötüşməyib. Biznes və iqtisadiyyatda getdikcə böyüyən qeyri-müəyyən proqnozlar və etimadsızlıq ticarət iqtisadiyyatının kiçilməsinə səbəb olub.

**Cədvəl 2: Xarici Ticarət dinamikası**

| İllər | Milyon ABŞ dolları ilə | | | | Əvvəlki illərə nisbətən faktiki qiymətlərlə, faizlə | | |
|---|---|---|---|---|---|---|---|
| | Ticarət dövriyyəsi | İdxal | İxrac | Saldo | Ticarət dövriyyəsi | İdxal | İxrac |
| 2017 | 24103.3 | 8783.3 | 15320.0 | 6536.7 | 85.2 | 83.8 | 86.1 |
| 2018 | 30955.0 | 11465.9 | 19489.1 | 8023.2 | 96.1 | 100.2 | 93.8 |
| 2019 | 33302.7 | 13667.5 | 19635.2 | 5967.7 | 96.8 | 93.5 | 98.8 |
| 2020 | 24471.3 | 10730.7 | 13740.6 | 3009.9 | 72.8 | 64.0 | 78.9 |

**Mənbə:** https://www.stat.gov.az/source/trade/

Ümumilikdə 2021-ci il əvvəlki ilə nisbətən daha çox iqtisadi artım və xarici ticarət ilə yadda qalıb. Bu ildə Respublikanın ticarət dövriyyəsi 35556,4 milyon dollar həcmində qərarlaşmışdır. Bu göstəricilər isə keçən ilə nisbətən 24,8 faiz çoxdur. Azərbaycanın ixracı keçən illə müqayisədə 17,0 faiz artaraq 23850,6 milyon ABŞ dollarına bərabər olub. İxrac, 2021-ci ilin bütün xarici ticarət dövriyyəsinin 67,1 faizini təşkil edib. Həmin ildə ölkəmizdə idxal əvvəlki ilə nisbətən 10,0 faiz azalaraq 11705,8 milyon ABŞ dolları təşkil edib ki, bu da ümumi ticarət dövriyyəsinin 32,9 faizini təşkil edib. 2021-ci ildə ölkəmizin xarici ticarət dövriyyəsinin saldosu müsbət olub və 12144,8 milyon dollar həcmində olub. Bu ildə həyata keçirilmiş layihələr olduqca çox maliyyə tələb edirdi. Lakin yerində və lazımi iqtisadi siyasət modeli formalaşdığından həm qeyd olunan xərclər ödənilib, həm də Azərbaycanın valyuta vəsaitləri 2,5 milyard dollar artmış və 53,2 milyard dollardan artıq olmuşdur.

Ümumiyyətlə vaksinasiya prosesi, karantin qaydalarının yumuşalması, xarici ölkələrlə sərhədlərin açılması, pandemiyanın yavaşlaması kimi səbəblərdən 2021-ci ildə iqtisadiyyat bərpa olunmağa və pandemiyadan əvvəlki vəziyyərinə qayıtmağa başlayıb. Ölkəmizdə bu iqtisadi inkişaf pandemiyanın başlamasından sonrakı ildə, yəni 2021-ci ildə neft və təbii qazın qiymətlərinin artması səbəbindən daha da gözə çarpacaq dərəcədə yaşanıb. ÜDM keçən ilə nisbətdə 5.6% böyüyərək 92.9 milyard manata bərabər olub. Adambaşına düşən ümumi daxili məhsul da həmçinin 5.1% artaraq 9269.3 manata yəni 5452.3 dollara bərabər olub. Bu ildə neft-qaz sektorunun inkişafı ilə yanaşı pandemiyadan dolayı yavaşlayan qeyri neft-qaz sektoruda özünün inkişaf dövrünü yaşayıb. Faizlə ifadədə qeyri neft-qaz sektoru 13.6% həcmində böyüyüb.

**Qrafik 5: İdxal olunmuş məhsulların ümumi dəyərinin faizlə ifadəsi**




**Mənbə:** https://www.stat.gov.az/news/index.php?id=5126, 2022

Yuxarıdakı qrafikdə 2021-ci ildə idxal olunmuş əmtəələrin ölkələr üzrə pay bölgüsü göstərilmişdir. Əvvəlki illərdə olduğu kimi Rusiya Federasiyası, Türkiyə və Çin ilk üçlüyü paylaşırlar. Avropa Birliyi ölkələri və ABŞ isə adətən üçlükdən sonrakı sıraları paylaşırlar. Ümumiyyətlə ölkəmizin idxal əməliyyatlarında əsas paya coğrafi regionlardan Avropa və Asiya sahibdir. Üçüncü sırada Amerika durur. Bu məlumatlar aşağıdakı cədvəldə öz əksini tapmışdır.

**Cədvəl 3:** İdxalın coğrafi quruluşu

| Coğrafi regionlar | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|
| Cəmi | 100.0 | 100.0 | 100.0 | 100.0 |
| Avropa | 49.2 | 48.0 | 49.3 | 48.6 |
| Asiya | 38.7 | 41.4 | 37.2 | 42.4 |
| Amerika | 11.3 | 8.6 | 10.8 | 8.3 |
| Afrika | 0.3 | 1.6 | 0.2 | 0.3 |
| Okeaniya | 0.5 | 0.4 | 2.5 | 0.4 |

**Mənbə:** Dövlət Statistika Komitəsi, 2021

İstehsal sənayesinin tərəqqisi üçün atılan addımların mühüm prinsipi reformlardır. Dünya bazarında, həmçinin Neft bazarında cərəyyan edən hadisələri və qeyri-müəyyənlikləri nəzərdə tutaraq, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti biznes modelinin inkişafı, onun dünya bazarında rəqabətqabiliyyətliliyi, maliyyə dayanıqlılığı və aktivlərinin dəyərinin artırılması üçün Fərman imzalayıb.

COVİD-19 pandemiyası dövründəki ixrac azalmalarının qarşısının alınması üçün atılan addımların əsasında ixracın stimullaşdırılması və dəstək verilməsi durur. Həmin dəstək ixracın şaxələndirilməsi üçün müsbət rol oynayır. Çünki, qlobal iqtisadiyyatda xarici bazarlara inteqrasiya edən sahibkarların xərclərinin çoxluğu, onların qiymət rəqabətində itirmələrinə gətirib çıxarır. Hökümətin etdiyi yardım pandemiya dövründə ixracın yavaşlamasının önünü kəsməklə, ənənəvi olmayan malların qlobal bazara ixracını asanlaşdırır.

Qlobal ticarətə açılma yolunda dövlətin güzəştə gedən və stimullaşdırıcı beynəlxalq ticarət və gömrük təşkilatlarına üzvlüyü əsasdır. Belə ki, pandemiyadan sonrakı dövrdə pandemiya dövründəki ixraca olan limitlərin ixraca göstərdiyi mənfi təsir, azad ticarətə stimul verəcəkdir. İxracın diversifikasiyası iqtisadiyyatın

şaxələndirilməsindən asılıdır. İqtisadi inkişaf və artım əldə etmək üçün ixracın diversifikasiyası xarici ticarətin liberallaşdırılmasından asılıdır. Bu dövrdə müqayisəli üstünlüyə malik malların keyfiyyət üstünlüyünə malik olması əsasdır. Azərbaycanın müqayisəli üstünlüklü mallarının tapılması yolunda biznes mühitinin innovativ yollara meyli, biliyə əsaslanan modellərin biznes sturukturları tərəfindən tətbiqi ixracın diversifikasiyası və iqtisadiyyatın şaxələnməsini olduqca tezləşdirəcək.

## 2.2. Dərman və dezinfeksiya vəsaitləri bazarında vəziyyətin təhlili və problemlərin aşkarlanması

Həyatın hər aspektini sarsan koronavirus pandemiyası iqtisadiyyata və qlobal bazara böyük zərbə vurmuş, milyonlarla insanın ölümü ilə nəticələnmiş və insanların həyatlarında böyük sarsıntı yaratmışdır. Və təbii ki, əczaçılıq bazarına da böyük təsir etmişdir.

COVİD-19 pandemiyasından qaynaqlanan bu yeni həyat tərzinin yaratdığı manelərə görə də əczaçılara, satış nöqtələrinə, apteklərə daha az müştəri gəlmiş və bu da mənfəətə olduqca mənfi təsir göstərmişdir. Gəlirlərdəki bu azalmalarda təbii olaraq əczaçılıq yerlərində ixtisarlara, azalmalara gətirib çıxarır.

Müxtəlif əczaçılıq məhsullarına, dərmanlara tələb dəyişdiyi üçün, bu gəlir azalmaları eyni zamanda istehsalçı firmalara da aiddir. Pandemiya dönəmində şəxsi gigiyena vasitələrinə və reseptsiz dərman vasitələrinə olan tələbdə kəskin artım və eyni zamanda istehlakçıların bu malları, pandemiyadan qaynaqlanan qorxu və panika içində alması, bu mallarda qıtlığa gətirib çıxarmışdır.

Pandemiyalar həmçinin ölkə iqtisadiyyatında daralmalara səbəb olur ki, bu da dərman vasitələri bazarına və bu bazardakı istehsalçılara mənfi təsir göstərir. Dərman vasitələrinin hazırlanması üçün lazım olan xammalın qlobal bazarda əsas iki təminatçısı olan Çin və Hindistan, COVİD-19 pandemiyası zamanı ixraca qoyduğu qadağalara görə xammalın çatdırılmasında maneələr törətdi və bu da bir sıra dərman və gigiyena vasitələrində qıtlıqla nəticələndi.

Bu çatışmamazlıqlar və təchizat zəncirinin yetərincə güclü olmaması hökümətləri daha çox öz-özünü təmin edən model seçməyə vadar etdi və bir çoxu ixraclara limitlər tətbiq etməyə başladı. Dünya Ticarət Təşkilatına üzv olan dövlətlərin pandemiya üçün lazımlı dərman və dezinfeksiya vasitələrinə tətbiq etdiyi sürətli təsdiq etmə və icbarı lisenziya qayda-qanunları isə pandemiyadan kənar, digər xəstəliklər üçün lazımi dərman vasitələrinin çatdırılmasında maneələr yaratmışdır.

Bu qıtlığın yaratdığı mənfi təsirlər ölkəmizdən də yan keçməyib. Koronavirusun müalicəsi üçün istifadə olunan bir sıra dərman növlərinin qıtlığı

onların qiymətlərinə də təsir edib, qiymətləri əhəmiyyətli dərəcədə artıb. Koronavirusun müalicəsində istifadə edilən dərmanların yoxa çıxmış olmasının əsas səbəblərindən biri tələbatın kəskin sürətdə artmasıdır. Digər bir səbəb isə, xəstəliyin profilaktikasında istifadə edilən dərmanların qeydiyyatı olmadığından Səhiyyə Nazirliyi tərəfindən idxalına və satışına icazə verilməməsidir. Bəzi şəxslər bu qıtlığı süni şəkildə yaradırdılar, səbəbi isə defisitin yaranması monopolistlər üçün bir fürsətdir. Bu səbəbdən dərman vasitələrinin təsdiq edilmiş qiymətdən fərqli qiymətə satışı və əsassız dövriyyədən çıxarılmaqla dərman qıtlığı yaradılmasının vaxtında müəyyən edilməsi və qarşısının alınması məqsədilə İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən aparılan monitorinqlər gücləndirilib. Dövlət qeydiyyatından keçən dərman vasitələrinin təsdiq edilmiş qiymətdən fərqli qiymətə satışı qadağandır və bu hallara görə məsuliyyət tədbirləri nəzərdə tutulur. 2021-ci ildə ölkəmizin pərakəndə ticarət şəbəkəsində dərman vasitələri, tibbi avadanlıq və dezinfeksiya vasitələrinə xərclənən vəsait əvvəlki illərə nisbətdə kəskin şəkildə artıb. (https://sputnik.az/20201214/koronovirusun-mualicesinde-istifade-edilen-dermanlar-baha-satila-bilmez-dovlet-xidmeti-425713156.html).

COVİD-19 pandemiyası dərman vasitələri üçün xərcləmələri 88 milyard ABŞ dolları dəyərində artırmış və bazarda 4.6 faizlik böyüməyə gətirib çıxarmışdır(https://www.iqvia.com/insights/the-iqvia-institute/reports/global-medicine-spending-and-usage-trends-outlook-to-2025). Baxmayaraqkı pandemiyadan qaynaqlanan ləngimələr dərman vasitələri bazarına 68 milyard ABŞ dolları həcmində zərər vurub, COVİD-19 pandemiyası üçün vaksin xərcləmələrinin ümumilikdə 2025-ci ilə qədər bazara 157 milyard ABŞ dolları həcmində gəlir gətirəcəyi güman edilir. Bu göstəricilər isə bazarın pandemiyadan əvvəlki göstəricilərinə olduqca yaxındır.

Qlobal dərman vasitələri bazarının faktura qiymətləri ilə 2025-ci ilə qədər 3.6 faizlik böyümə və COVİD-19 peyvəndlərinə xərclər istisna olmaqla bazarı ümumi həcminin 1.6 trilyon ABŞ dolalrı həcminə çatması gözlənilir. Ümumi olaraq COVİD-19 vaksin xərclərin 157 milyard ABŞ dolları olacağı gözlənilir. Bu xərclər, əsasən, 2022-ci ilin sonuna qədər tamamlanacaq peyvəndlərə yönəlişdir. Sonrakı

illərdə virusa davamlılıq üçün əlavə gücləndirici peyvəndlərin vurulacağı istisna edilmir.

COVİD-19 əczaçılıq sənayesi üçün bir əsrlik fürsət kimi görünə bilər, çünki bu, reseptlə satılan dərmanlara, peyvəndlərə və tibbi cihazlara tələbatı artırır. Bu, COVİD-19 epidemiyasının əsas qısamüddətli təsirlərindən biri kimi qəbul edilə bilər, lakin bunun daha qısa və uzunmüddətli təsirləri də var.

Qısamüddətli təsirləri

Tələbə olan dəyişikliklər, təminatda olan çatışmazlıqlar, istehlakçıların panikaya düşərək alış-veriş etməsi və ehtiyat kimi yığması, qanunlarda edilən dəyişikliklər və tətqiqat və araşdırmaların texnologiya vasitəsilə uzaqdan və online formata keçməsi qısa müddətli təsirlərə aiddir. Xüsusilə xroniki xəstəliklər üçün ağızdan qəbul edilən ev dərmanlarına tələbat və panika alış-verişi, təklifdə qıtlığa səbəb olan tələbdə artım, həmçinin tədarük zəncirindəki çatışmazlıq səbəbindən kasadlıq yarana bilər. Xəstəxanalarda COVİD-19 üçün istifadə edilən dərmanlar, o cümlədən tənəffüs müalicəsi və ağrıya qarşı müalicələr yanvarın əvvəlindən 100%-dən 700%-ə qədər artım müşahidə olunub (https://www.iqvia.com/insights/the-iqvia-institute/"COVİD-19"/shifts-in-healthcare-demand-delivery-and-care-during-the-"COVİD-19"-era).

COVİD-19 pandemiyası səbəbindən yaranan qıtlıq tibbi cihazlar və şəxsi gigiyena vasitələri bazarına da təsir göstərib. Təsirin böyük olduğu şəxsi gigiyena vasitələrinə əlcəklər, xüsusi geyimlər, qoruyucu eynəklər, üzlüklər, ağız-burun qoruyucu maskalar daxildir. Şəxsi gigiyena vasitələrində yaranan qıtlıq ölkələri bu yöndə ciddi addımlar atmağa və müvafiq qanunvericilik aktları yaratmağa vadar etdi. Avropa Kommisiyası şəxsi gigiyena vasitələri və seçilmiş bir sıra tibbi cihazların daxili bazara girməsini asanlaşdırmaq üçün qəbul etdiyi qanunverici aktlar, həmin addımlara nümunədir. Həmçinin, tələb olunan malların tədarükünü sürətləndirmək və üzbəüz müraciətlərin sayını azaltmaq məqsədi ilə tibbi ləvazimatlarının onlayn kommunikasiya sistemi vasitəsilə göndərilməsi və ilkin razılığın alınması yolu ilə bir iş günü ərzində təcili yardım lisenziyasının verilməsi prosesi sürətləndirilib. Pandemiya ilə mübarizə üçün tətbiq edilən gömrük tədbirləri

maska, tibbi xalat, əlcək, dezinfeksiyaedici maddələr, sabun, yuyucu vasitələr və spirtin ixracına qadağa qoyulması və koronavirusla əlaqədar idxal olunan malların rəsmiləşdirməsinin sürətləndirilməsini əhatə edir.

Əhali tərəfindən fövqəladə vəziyyət zamanı dərman vasitələrinin panika alışı ilə istehlakı, xüsusən xroniki xəstəliklərə qarşı olan dərman vasitələrində qıtlığa səbəb ola bilər. Araşdırmalar panika alışı ilə alınan xroniki xəstəliklərə qarşı dərman vasitələrinin, 2020-ci ilin mart ayına qədər 8.9 faiz artacağını proqnozlaşdırmışdı (https://www.who.int/emergencies/diseases/novel-coronavirus-2019). Eynilə, yüksək xolesterol, miqren və hipotiroidizmi müalicə edən dərmanlara olan tələbat da nəzərəçarpacan dərəcədə artım gördü.

Dərman vasitələrinin hazırlanmasında lazım olan maddələrin, əsas xammalın və dərman vasitələrinin hazır məhsullarının qlobal bazarda əsas təminatçısı olan iki ölkə, Çin və Hindistanın pandemiya səbəbindən istehsalatlarında yavaşlamalar və ixracatlarında yaranan problem və çətinliklər, antibiotiklər də daxil olmaqla, əsasən reseptlə satılan dərmanların çatışmazlığına və qiymət artımına səbəb olmuşdur. Qlobal səviyyədə qıtlığın qarşısını almaq üçün Avropa Komissiyası həm tələbin optimallaşdırılmasına, həm də səmərəli təminatı təmin qaydalar təklif etmişdir. Bu qaydalar aşağıdakılardır:

1. COVİD-19 ilə əlaqəli müalicələr üçün daha sürətli təsdiqləmə.
2. Potensial COVİD-19 müalicəsi üçün icbari lisenziyalaşdırma.
3. Təchizat zəncirinin inteqrasiyasını qorumaq üçün idxalı gücləndirmək üçün tənzimləmələr.

Uzunmüddətli təsirlər

COVİD-19 ilə əlaqəli olmayan dərman vasitələri və tibbi cihazların təsdiq olunmasında gecikmələr, əczaçılıqda tədarük zəncirinin daha da öz-özünü təmin edən, yerli idxala əsaslanan modelə yönlənməsi, əczaçılıq sənayesində yavaşlama və istehlakda mümkün dəyişikliklər COVİD-19 pandemiyasının dərman vasitələri bazarına uzunmüddətli təsirlərinə aid edilə bilər.

COVİD-19 ilə əlaqəli olmayan dərman vasitələri və tibbi cihazların təsdiq olunmasında gecikmələr: Bütün ölkələrdə pandemiya dövründə, pandemiyanın

bərabərində gətirdiyi krizisin təzyiqi ucbatından əsas pirioritet koronavirus pandemiyasının idarə edilməsi olduğu üçün, qeyri-Covid əczaçılıq məhsullarının ölkəyə buraxılmasının təsdiq olunmasında geçikmələr müşahidə olunur.

Əczaçılıq sənayesində öz-özünü təmin edən istehsal modelinə keçid: Pandemiya dövründə Çin və Hindistanın tədarük etməkdə çətinlik çəkməsi digər ölkələri, gələcəkdə bu cür halların baş vermə potensialına qarşı, özü-özünü təmin edən istehsala keçidə təşviq etdi. Bununla əlaqədar, 2020-ci ilin mart ayında Avropa Komissiyası birbaşa xarici investisiyalar və üçüncü ölkələrdən kapitalın sərbəst hərəkəti ilə bağlı yeni təlimat dərc etmişdir. Avropa Birliyi vətəndaşlarının sağlamlığı üçün bu təlimatlarda, xüsusən, dərman vasitələri bazarına təsir edən firmaların risklərin qiymətləndirilməsi proseduru icbari hala gətirilmişdir (https://trade.ec.europa.eu/doclib/docs/2020/march/tradoc_158676.pdf).

Koronavirus pandemiyası bir çox ölkələr üçün iqtisadiyyatın yavaşlaması ilə nəticələndi və bu, ola bilsin ki, ölkənin iqtisadi artımı ilə sıx əlaqəli olan əczaçılıq sənayesinin artımının yavaşlamasına səbəb olacaq. Bazar artımındakı bu yavaşlama daha çox yeni dərmanların daxil olması ilə bağlıdır. Çünki əczaçılıq şirkətlərinin portfelində prioritetləri dəyişir.

COVİD-19 qlobal pandemiyası əsasən dərman vasitələri bazarına, həm qlobal həm də yerli perspektivlərdən görünə bilən çox saylı qısa və uzunmüddətli təsirlər göstərə bilər. Bu təsirlərin müəyyən edilməsi və dəlillərə əsaslanan planlaşdırma isə hökümətləri qərarlarının qəbulu zamanı müvafiq istiqamətdə istiqamətləndirə bilər. Uzunmüddətdə fəsadların qarşısının alınması üçün qısamüddətli təsirlərin müəyyən edilməsi və onlara uyğun planlaşdırma mütləqdir. Bu təsirlərin müəyyən olunması, təsirlərin öz bərabərlərində gətirdikləri mənfi halların qarşısını almaq üçün hökümətlərin qərarlarında rəhbərlik edir. Və bunlar, daha qıt səhiyyə resursları və dərman vasitələri bazarı olan inkişaf etməkdə olan ölkələr timsalında onlar üçün daha vacib ola bilər.

Dezinfeksiya vasitələri bazarında vəziyyəti təhlil edərkən bu bazarın COVİD-19 pandemiyasından sonra yüksəs dinamikaya malik olduğu nəzərə çarpır. Belə ki, 2021-2026-cı illər arasında qlobal dezinfeksiya vasitələri bazarı gəlirə görə 12%

böyüyəcəyi proqnozlaşdırılır. COVİD-19 pandemiyası dövründə koronavirus testlərinə diqqətin artması, dünya miqyasında labarotoriyalar və xəstəxanalarda dezinfeksiya vasitələrinə ehtiyacı artırıb. Gigiyena vasitələrinin bazarında görünüş, koronavirus pandemiyasından sonra kəskin dəyişib. Bu bazar 2020-ci ildə tələbdə fenomenal artımla üzləşib, təkcə 2020-ci ildə 500%-dan çox artım nəzərə çarpıb. Bu tələbatın artımına mühüm tibb orqanlar, əsasən də Ümumdünya Səhiyyə Təşkilatının profilaktik tövsiyyələri təkan verib. Buna görə də, əl gigiyenası haqqında artan məlumatlılığın, hökumət və səhiyyə təşkilatlarının effektiv gigiyena və təhlükəsizliyi qorumaq üçün artan tələbinin bazarın böyüməsinə təsir edəcəyi gözlənilir.

Proqnoz ilində dezinfeksiya vasitələri bazarının böyüməsinə aşağıdakı amillər təkan verə bilər:

1. Xəstəxana və labarotoriya şəraitində yoluxmaların kəskin artması
2. Qlobal dezinfeksiya vasitələri bazarında istehsalda kəskin artım
3. Səhiyyə təşkilatlarına ianələrin artması
4. COVİD-19 pandemiyasının növbəti dalğalarında artım

Dezinfeksiyaedici vasitələr ilə yaxından əlaqəli olan vasitələr, ilk növbədə, əməliyyatlar zamanı əllərdən mikroorqanizmləri öldürmək üçün istifadə olunur. Yaxın illərdə COVİD-19-un yayılması səbəbindən gigiyena və təhlükəsizlik tədbirləri ilə bağlı biliklərin artacağı gözlənildiyi üçün, dünya miqyasında dezinfeksiyaedici maddələrə tələbatın xeyli genişlənəcəyi gözlənilir. Antiseptik dezinfeksiya edən səhiyyə mühitlərinin və təkrar istifadə oluna bilən, qeyri-invaziv qulluq avadanlıqlarının sayı son illərdə xüsusilə artmışdır ki, bu da bazarın böyüməsinə təsir göstərir.

2020-ci ildə maye seqmentli dezinfeksiyaedici vasitələr qlobal səhiyyə sənayesinin demək olar ki ən çox bazar payını təşkil edirdi, çünki kommersiya tibbi dərəcəli dezinfeksiyaedicilərin əksəriyyəti maye formasındadır. Bununla belə, səhiyyə müəssisələrində zərərsizləşdirmə və fumiqasiya işləri bir çox hallarda maye tipli dezinfeksiyaedici maddələrin istifadəsi ilə həyata keçirilir. Hal-hazırda, tərkibində perasetik turşu və hidrogen peroksid olan dezinfeksiyaedici maddələr

səhiyyə müəssisələri arasında effektiv seçim kimi özünü sübut etmiş və bununla da geniş tətbiq olunmağa başlamışdır.

Alkoqol əsaslı dezinfeksiya vasitələri, 2020-ci ildə qlobal dezinfeksiyaedici vasitələrin bazar payının 89%-dən çoxunu təşkil etmişdir. Habelə, proqnoz dövründə bazar üstünlüyünü qoruyub saxlamışdır. Alkoqol əsaslı dezinfeksiyaedici maddələrin suya, santexnika və qurutma qurğularına ehtiyac olmadan bir sıra patogenləri məhv etməkdə yüksək effektivliyi sübut edildiyi üçün tələbat əhəmiyyətli dərəcədə yüksəkdir. Beləliklə, alkoqol əsaslı dezinfeksiyaedici maddələrin səhiyyə müəssisələrində təkrar istifadə üçün yüksək effektə malik olduğu bildirilir.

COVİD-19 pandemiyası dezinfeksiyaedici vasitələrin bazar payına müsbət təsir göstərib. Koronavirusun tibbi xidmət mühitində sağ qalma şansı yüksək olduğundan, çirklənmənin qarşısını almaq üçün əməliyyat otaqları və tibbi cihazların daxil olduğu xəstəxana binaları dezinfeksiya edilməlidir. COVİD-19 pandemiyası xəstəxanaya qəbulu əhəmiyyətli dərəcədə artırdı ki, bu da dezinfeksiya vasitələrindən yüksək istifadəyə səbəb oldu. Bundan əlavə, qocalmış əhalinin sayının artması və xroniki xəstəlikləri olan xəstələrin sayının artması bu bazarın böyüməsini şərtləndirən əsas amillərdir.

Avropa səhiyyə bazarında dezinfeksiyaedici vasitələrin bazarının proqnoz dövrünün sonuna qədər 6 milyard Abş dollarına yaxın olacağı gözlənilir. Səhiyyə sistemləri yüksək səviyyədə tənzimlənir və region, məhsulların dezinfeksiya və sanitarlaşdırılması üçün təhlükəsizliyi və standartları qorumaq üçün əhəmiyyətli təlimatlara əməl edir. Gellər, sabunlar və salfetlər də daxil olmaqla əl dezinfeksiyaediciləri Avropada biosid hesab olunur. Həm özəl, həm də dövlət qurumlarının gigiyena vasitələrindən istifadəyə çağırış təşəbbüsləri bazarın böyüməsinə təkan verir. COVİD-19 pandemiyasının baş verməsi ilə Avropa Komissiyası antiseptik və dezinfeksiyaedici vasitələrin əlçatanlığını maksimum dərəcədə artırmaq üçün sənaye iştirakçıları və üzv ölkələrlə işləməkdədir.

Qlobal dezinfeksiyaedici vasitələr bazarı geniş çeşiddə ənənəvi və ən son nəsil məhsulları təklif edən bir neçə qlobal, regional və yerli oyunçunun iştirakı ilə yüksək

rəqabətlidir. Kimberly-Clark, Reckitt Benckiser Group , Ecolab, The Clorox Company, STERIS və GOJO Industries bazarda əsas təchizatçılardır. Bu satıcılar əhəmiyyətli bazar əhatəsi ilə effektiv məhsul kompozisiyalarına, innovativ marketinq strategiyalarına və qabaqcıl məhsul texnologiyasına malikdirlər. Satıcılar, xüsusən də qlobal oyunçular məhsul portfelini artıracaq və bazarda təcrübəni təkmilləşdirə biləcək orqanik böyümə strategiyalarını həyata keçirməyə getdikcə daha çox diqqət yetirirməkdədirlər.

## 2.3. Dərman və dezinfeksiya vəsaitləri bazarına bu dövrdə gömrük nəzarətinin təşkilinin əsas fərqli cəhətləri

COVİD-19 pandemiyası dövründə dövlətlərin keçirdiyi əsas islahatlardan biri də, COVİD-19-un profilaktikasında istifadə olunan dərman vasitələri və tibbi cihazların, gömrük nəzarətindən cəld keçidini təmin etmək idi. Bu tədbirlər həm də daxili bazarlarda yaranan əczaçılıq malları qıtlığına qarşı yönəlmişdi.

Ümumdünya Gömrük Təşkilatı da öz növbəsində pandemiya zamanı vaksin və dərman pereparatlarının daha rahat nəqliyyatını təşkil etmək üçün tədbirlər və qətnamə hazırlayıb. Bu qərar mövcud situasiya baxımından kritik sayılan dərman vasitələrinin və vaksinlərin rəsmiləşdirilməsinin prioritetləşdirilməsini və asanlaşdırılmasının vacibliyini vurğulayan üç tədbiri özündə əks etdirir:

1. Gecikmələrə görə məhsulun mümkün zərərli temperatur dəyişikliklərinin qarşısını almaq;
2. İdxal və ya ixrac zamanı, məsələn, idxal və ya ixrac sənədlərində belə dərmanların və vaksinlərin daşınmasını müəyyən etmək üçün mexanizmləri təmin etmək;
3. Səlahiyyətli/tanınmış təchizat zənciri iştirakçıları, o cümlədən COVID-19 peyvəndi istehsalçıları üçün xüsusi prosedurları təmin etmək.

Tədbirlər daha əvvəl qeyd edildiyi kimi, COVID-19 vaksinlərinin zamana və temperatura həssas maddələri üçündür. Soyuq saxlama tələblərinə görə onları tez xarab olan mallar kimi təsnif etmək olar. Bundan əlavə, COVID-19 pandemiyasına son qoymağın əsas yolu kimi COVID-19 peyvəndinin sürətlə yayılması zərurəti COVID-19 peyvəndlərinin və müvafiq tibbi ləvazimatların rəsmiləşdirilməsinə ümumi yükün rəsmiləşdirilməsinə üstünlük verilməsini tələb edir. Gömrük rəsmiləşdirilməsi prosesində həmçinin vaksin administrasiyası üçün lazım olan tibbi ləvazimatlara, məsələn, flakonlar, spirt məhlulları, şprislər, iynələr və s. kimi prioritet verilməlidir. COVID-19 vaksinlərinin istehsalı, gömrük rəsmiləşdirilməsində xüsusi diqqət və prioritet peyvəndin istehsalı prosesində istifadə olunan xammal və komponentlərə də verilməlidir. ÜTT-nin Dünyada COVID-19 peyvəndlərinin hazırlanması və çatdırılması hesabatında göstərildiyi

kimi, virusun yoluxucu təbiətinə görə COVID-19 peyvəndi ilə bağlı tullantıların idarə edilməsi xüsusi diqqət tələb edir. COVID-19 peyvəndləri kütləvi peyvənd kampaniyalarında çatdırıldıqda, peyvənd qrupları tərəfindən istifadə olunan fərdi qoruyucu vasitələr kimi birdəfəlik və təkrar istifadə olunan materialların və təhlükəli tullantıların məcburi istifadəsi səbəbindən səhiyyə tullantılarının əmələ gəlməsi halları çoxalacaq.

Avropa Birliyi isə 2020-ci ilin əvvəlində koronavirus pandemiyasının başlanmasından bəri, bütün üzv dövlətləri qoruyucu vasitələr, sınaq dəstləri və ya ventilyatorlar kimi tibbi cihazlar üçün gömrük rüsumlarını və ƏDV-ni müvəqqəti dayandıran bir sıra qərarlarla dəstəkləmişdir. Bu, həkimlərin, tibb bacılarının və xəstələrin çox ehtiyac duyduğu tibbi avadanlıqları əldə etməyi maliyyə cəhətdən asanlaşdırdı. İlkin tədbir altı ay tətbiq edilsə də, azadolmalar üç dəfə uzadılıb. 1 yanvar 2022-ci il tarixindən qüvvəyə minən yeni qərar vergidən azadetmənin bir daha uzadılmasında maraqlı olan 23 Aİ üzv dövlətinə idxal üçün bu mühüm məhsullar üzrə gömrük rüsumlarını və ƏDV-ni dayandırmağa davam edir. Bu vergidən azadetmə 30 iyun 2022-ci il tarixinədək tətbiq olunmağa davam edəcək.

Lakin gömrük nəzarətini dərman vasitələri üçün daha da rahatlaşdırılmasının bəzi nöqsanları var ki, bunlardan ən əsası da saxta və keyfiyyətsiz dərman pereparatlarının daxili bazarda sayının, dövriyyəsinin kəskin şəkildə artmasıdır. Ümumdünya Səhiyyə Təşkilatının verdiyi məlumatlara əsasən, dünya miqyasında iki milyarda yaxın insan dərman pereparatlarının çatışmazlığı ilə üzləşir. Bu hal isə bir çox hallarda bazara keyfiyyətsiz və ya saxta dərman vasitələrinin girməsinə şərait yaradır. Eyni zamanda son illərdə onlayn ticarətin inkişafı, saxta və keyfiyyətsiz dərman pereparatlarının lisensiyasız mənbələrdən alış-satışını daha da asanlaşdırmış, bu tip dərmanların geniş yayılmasına şərait yaratmışdır. ÜST-nın məlumatlarına əsasən orta və aşağı gəlirli ölkələrdə satılan hər 10 dərman pereparatından 1-i saxtadır. ÜST bu problemi sağlamlıq üçün ən böyük təhdidlərdən biri kimi görür.

Dərman vasitələri haqqında Qanuna əsasən, dərman pereparatları satışa çıxarılmazdan əvvəl birinci növbədə gömrük nəzarətindən keçdikdən sonra dövlət reyesterindən keçməlidir.

# FƏSIL III. ÜMUMDÜNYA GÖMRÜK TƏŞKILATININ ( ÜGT) PANDEMIYA DÖVRÜNDƏ TƏLIMATLARI

## 3.1.Pandemiya ilə mübarizədə dünya ölkələrinin təcrübəsi ( gömrük orqanları timsalında)

Ümumdünya Gömrük Təşkilatı (ÜGT) 183 üzvdən ibarət hökümətlər arası beynəlxalq təşkilatdır. Pandemiya dövründə ÜGT dəqiq informasiya, rəhbərlik və bəyannamələr ilə 183 üzv ölkələrlə birgə, yaranan fövqəladə vəziyyətin qarşısının alınmasına səy göstərmişdir.

ÜGT-nin təbii fəlakətlərdən əmələ gələn fəsadların azaldılması, qarşısının alınması üçün tövsiyyələri olsa da, bu tövsiyyələr sadəcə yerli səviyyəli fəlakətləri yəni meşə yanğınları, zəlzələlər, selləri əhatə edirdi. Covid-19 pandemiyası kimi qlobal bir fəlakətin qarşısının alınması istiqamətində görüləcək tədbirlər daha dəqiq və detallı araşdırma tələb edirdi. Bu səbəbdən ÜGT özünün rəyasət heyətini yaratdı,digər beynəlxalq təşkilatlarla birlikdə bəyannamələr yayımladı.

Ümumdünya Gömrük Təşkilatı pandemiyanın dünya miqyasında qarşısının alınması və onunla mübarizədə əvəzolunmaz rol oynayıb və hələ də bu rolunu davam etdirir. ÜGT-nin yayımladığı birgə bəyannamələr, pandemiya dövründə gömrük prosedurlarının həyata keçirilməsi üçün informasiyanın paylanılması, dünya miqyasında iqtisadi, ictimai və tibb sahələrində yaranan fövqəladə vəziyyətin həlli üçün ticarətin asanlaşdırılmasında digər beynəlxalq təşkilatlarla (ÜST, ÜTT, BMT və.s kimi) rəhbərlik etməsi təşkilatın oynadığı əsas rollardandır.

2020-ci ilin Mart ayından etibarən ÜGT özünün bütün üzvlərinə dolğun və adekvat məlumatları ötürmək üçün qlobal şəbəkə vasitələrindən istifadəni genişləndirdi. Gömrük təşkilatlarına, gömrük ofislərinə, cəmiyyətə və firmalara qlobal krizis zamanı davranış və kommunikasiya üsulları barədə təlimatlar da yayımlanmışdır.

ÜGT COVID-19 pandemiyası dövründə xəstəliyə qarşı saxta dərmanlar və saxta mallar barədə xəbərdarlıq etmiş, Ümumdünya Səhiyyə Təşkilatı ilə birgə gömrük orqanlarında tibbi ləvazimatlara nəzarət zamanı malların təsnifatı üçün təlimatlar hazırlamışdır. Eyni zamanda ÜGT ÜST ilə birgə dərman və dezinfeksiya

vasitələrinin gömrük təsnifatı zamanı təlimat da hazırlamışdır. Pandemiya dövründə ÜGT özünün üzv ölkələri ilə birgə onlayn görüşlər və onlayn təlimlər də təşkil etmişdir.

ÜGT-nin təşkilatçılığı ilə gömrük orqanlarının pandemiya ilə mübarizə təcrübələri öz aralarında paylaşılmış, həmçinin ÜGT-nin Baş direktoru pandemiya zamanı əməkdaşlıq üçün bəyanat hazırlamışdır. Sənaye sahələri isə ÜGT-nin Özəl Sektorla Məsləhət Qrupunu sərhədlərin açıq qalması və qlobal ticarəti qorumaq üçün dəstəyə çağırır. ÜGT-nin hesabatlarında isə hava transportasiyasının və gömrük orqanlarının rolunun önəmi vurğulanmaqdadır.

ÜGT və ÜST-nin birgə yayımladığı gömrük məntəqələrində gömrük nəzarəti zamanı tibbi ləvazimatlar, dərman və dezinfeksiya məhsullarının təsnifatı üçün olan təlimatlar ÜGT-nin rəsmi veb-səhifəsində yayımladığı instrument və alətlər başlığı altında yerləşdirmişdir. Bu başlıqda həmçinin Qlobal Fəlakətlərin Fəsadlarının Aradan Qaldırılmasında gömrük orqanlarının rolu barədə qətnamə, Kioto Konvensiyasının yenidən işlənib hazırlanmış versiyası və müvəqqəti qəbul olunmuş İstanbul Konvensiyasını görmək mümkündür (http://www.wcoomd.org/en/topics/facilitation/instrument-and-tools.aspx).

ÜGT-nin ən vacib və təsirli hesabatlarından biri 72 səhifəlik ÜGT katibinin qeydləri: Gömrük orqanları COVID-19 pandemiyasının təsirlərini azaltmaq üçün nə edə bilər hesabatı olmuşdur. Hesabat ÜGT üzvlərinin COVID-19 pandemiyasının iqtisadi və ictimai fəsadlarının yüngülləşdirilməsi ilə bağlı gömrük orqanları üçün təlimatları özündə cəmləşdirib. Burada həmçinin ÜGT üzvü ölkələrin COVID-19 pandemiyasının yaratdığı çətinlikləri siyasi yolla necə öhdəsindən gəlmək lazım olduğu haqqında fikirləri paylaşılıb.

Digər beynəlxalq təşkilatlarla birlikdə ÜGT ticarətin asanlaşdırılması ilə bağlı ictimaiyyətə açıq olan pulsuz onlayn məlumat bazalarında informasiyanı birləşdirir,eyni zamanda ÜGT həmçinin kiçik və orta bizneslərə COVID-19 böhranını aradan qaldırmağa öz töhfəsini verir.

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) qlobal səhiyyə sferasında idarəçiliyin təməlidir. COVİD-19 kimi qlobal pandemiyalara və digər qlobal fövqəladə

vəziyyətlərin qarşısının alınması və fəsadlarının azaldılmasına liderlik edir. 1948-ci ildə Birləşmiş Millətlər Təşkilatı sisteminin bir hissəsi kimi yaradılmış ÜST bütün xalqlar üçün ən yüksək sağlamlıq səviyyəsinə nail olmaq məqsədi güdən hökumətlərarası təşkilatdır. Tarix boyu təşkilat elmi biliklərin və səhiyyə siyasəti üçün təcrübələrin xəzinəsi kimi xidmət etmişdir.

31 dekabr 2019-cu ildə Ümumdünya Səhiyyə Təşkilatı Çinin Uhan şəhərində səbəbi bilinməyən pnevmoniya hadisələrinin baş verməsi barədə məlumat aldı. Sonrakı günlərdə ÜST bu məlumatları bir çox bölgədən aldı. ÜST daha sonra Çindən əlavə məlumat və yoxlama tələb etdi, ÜST-nin Çin Ofisi isə 3 yanvar 2020-ci ildə Çin Milli Səhiyyə Komissiyası ilə görüşdü. Bundan əlavə, ÜST Çin Xəstəliklərə Nəzarət Mərkəzindən epidemiya, virus və xəstəlik barədə əlavə və yenilənmiş məlumatlar istədi.

11 mart 2020-ci il tarixində pandemiya elan edilməsindən sonra ÜST-nin bir çox cəbhələrdə və qlobal səhiyyə idarəçiliyi sistemində müxtəlif tərəfdaşlarla birgə fəaliyyətləri intensivləşdi. Bir çox tədbirlər həyata keçirildi ki, bu tədbirlərə məlumatların ötürülməsi, təlimatlar, elm sahəsində əməkdaşlığın asanlaşdırılması və koordinasiyası, özəl-dövlət sektorlarının tərəfdaşlığı və daha çox təsirə məruz qalan ölkələrdə xüsusi missiyaların həyata keçirilməsi daxildir. 2020-ci ilin mart ayına qədər, xüsusi karantin rejimi, daxili və beynəlxalq nəqliyyatın məhdudlaşdırılması və digər sanitar tədbirlər inkişaf etməkdə olan və həssas ölkələrə, sosial qruplara daha da güclü təsir göstərərək qlobal iqtisadiyyata ağır zərbə vurdu.

Ümumiyyətlə ÜST-nin COVID-19 kimi epidemiya və fövqəladə hallarla bağlı iki əsas vəzifəsi var. Birincisi dövlətlərə fövqəladə vəziyyətlə özləri məşğul olmaqda yardım göstərmək digəri isə, strateji istiqamət, etibarlı məlumat, koordinasiya və texniki rəhbərlik vasitəsilə səhiyyənin idarə edilməsində liderlik və dəstəyi saxlamaq. Dövlətlər qlobal səhiyyə idarəçiliyində əsas oyunçulardır. Beynəlxalq Səhiyyə Qaydalarına əsasən, onlar fövqəladə vəziyyətlərə effektiv cavab vermək üçün əsas imkanlarını səfərbər etməyə borcludurlar.

COVID-19 pandemiyasının qarşısını almaq üçün beynəlxalq təşkilatların rolu ilə yanaşı dövlətlər də olduqca böyük məsuliyyət daşımışlar. İstər gömrük

nəzarətində yeniliklər, istər sosial və iqtisadi sferada dəyişikliklər olsun bütün bu yeni tətbiqlər yalnız bir amala pandemiyanın yayılmasının qarşısının alınmasına yönəlmişdir. Tədqiqatda bu dövlətlərdən qlobal səhnədə daha aktiv rol oynayan dövlətlər və ya dövlət ittifaqlarının gömrük nəzarəti və gömrük sistemlərinə pandemiya dövründə edilən dəyişikliklərə toxundum. Bu dövlətlər aşağıdakılardır:

Çin

Çin Baş Gömrük İdarəsi COVID-19-un yayılmasına qarşı müvafiq iş strukturu və mexanizmləri qurub, vətəndaşların sağlamlığı təhlükəsizliyini qorumaq üçün araşdırmalara əsaslanan sərhəd mühafizəsi və karantin tədbirləri görüb və beynəlxalq ticarəti qorumaq və asanlaşdırılmasını təşviq etmək üçün qanun layihələrinə düzəliş edib. Pandemiyanın ilk mərhələsindən başlayaraq Çin Gömrük İdarəsi Komanda Mərkəzi yaratdı. Bu mərkəzə Baş komandan kimi Çin Baş Gömrük İdarəsi Naziri, Baş komandanın müavinləri kimi isə Nazirin müavinləri təyin edilmiş və İşçi Qrup yaradılmışdır. Sərhəd təhlükəsizliyi və karantinə nəzarəti təmin edən Nazir müavininin başçılıq etdiyi İşçi Qrupun əsas vəzifəsi ölkə ərazisindəki epidemiya ilə mübarizə və bu mübarizədə Dövlət Şurası tərəfindən hazırlanmış qanun layihələrinin tətbiqinə nəzarət olmuşdur. Əlavə olaraq İşçi Qrupun epidemiya əleyhinə planların hazırlanması, gömrük nəzarəti və digər sərhədlə əlaqəli məsələlərdə kordinasiyası ilə birgə, eyni zamanda bu yöndə digər dövlət agentlikləri ilə ortaq çalışmaq, pandemiya əleyhinə həyata keçirilən tədbirlərə başçılıq və fövqəladə vəziyyətlərdə həll yolu tapmaq kimi səlahiyyətləri də var idi. İşçi Qrup daxilində 9 alt qrup yalnız bir şöbə tərəfindən idarə olunmuş və bu idarəetmə sisteminə Çin Baş Gömrük İdarəsinin digər müvafiq şöbələri də iştirak etmişdir.

Çin Baş Gömrük İdarəsi həm ölkədə, həm də xaricdə xəstəliyin yayılmasını yaxından izləyir və bir çox mənbədən məlumat toplayır. Virus təkamül etdikcə, riskləri dəyərləndirmək və ölkə daxili sərhəd keçid məntəqələrində müvafiq tədbirlər görmək və təlimat vermək üçün müxtəlif sahələrdən və şöbələrdən mütəxəssislər toplanılır. İlk mərhələdə bütün sərhəd keçid məntəqələrindən keçən sərnişinlərdən sağlamlıq vəziyyətini, əsasən də pnevmoniyaya bənzər simptomları, son 14 gün ərzində səyahət etdikləri yerləri gömrük orqanlarına bəyan etmələri tələb

olunurdu. Bütün sərhəd keçid məntəqələrindən keçən sərnişinlər 3 mərhələli yoxlamadan keçirilirdi:

1) Sərnişinlər sağlamlıq vəziyyətlərini bəyan etməli, bədən tempraturları ölçülməli və ilkin sağlamlıq yoxlamasından keçmələri tələb olunur.

2) Birinci mərhələdə COVID-19 ilə əlaqəli olan ilkin simptomlar aşkar olunan və ya COVID-19 sürətli yayıldığı ölkələrdən və ya regionlardan gələn sərnişinlərdən epidemoloji araşdırma, tibbi müayinə və laboratoriya testləri vasitəsilə əlavə müayinədən keçmələri tələb olunur.

3) İkinci mərhələdə COVID-19 virusunun yoluxduğu təsdiqlənmiş hallar, şübhəli hallar və ya yaxın təmas kimi müəyyən edilən və ya müvafiq simptomlar göstərən şəxslər Birgə Profilaktika və Nəzarət Mexanizminin tələblərinə uyğun olaraq sonrakı müalicə və ya tibbi müşahidə üçün karantinə alınırlar.

Bu üç mərhələli yoxlama virusa yoluxmanın erkən aşkarlanması, erkən məlumat, erkən karantin və erkən müalicə imkanı verir.

Çin Baş Gömrük İdarəsi məlumatların mübadiləsi və yoxlanılması, karantin və sərnişin daşınma kimi bir çox məsələdə digər sərhəd agentlikləri ilə birgə işləyir və virusun yayılmasının qabağını kəsmək üçün kompleks profilaktika tədbirləri görüb, nəzarət şəbəkəsi yaratmışdır.

Hava yolu ilə Çin sərhəddinə çatmamışdan əvvəl virusun kəskin yayılmış olduğu ölkə və regionlardan gələn sərnişinlərin identifikasiyası çətin olduğu məlumdur. Bu məqsədlə Çin Gömrük Baş İdarəsi qlobal uçuş marşrutlarında və siyahılarında korrelasiya təhlilləri edir ki, bu da sərhəddə daha dəqiq və təsirli karantin tədbirləri görülməsinə gətirib çıxarır.

Çin Baş Gömrük İdarəsi digər ölkələrdəki həmkarları ilə sərhədlərin qorunması və karantin tədbirləri sahəsində əməkdaşlığı daha da gücləndirmişdir. Epidemiyaya qarşı tədbirlərin kordinasiyası üçün daha möhkəm əlaqə yaradılmışdır.Çin Baş Gömrük İdarəsi COVID-19-un qarşısının alınması, karantin qaydaları və sərhəd təhlükəsizliyi, bu istiqamətlərdə qanun layihələri barəsində təcrübələri digər ölkələrin gömrük agentləri ilə mübadilər etmişdir.

Epidemiya əleyhinə təchizatların sürətli sənədləşdirilməsini təmin etmək üçün xüsusi İşçi Qrupun nəzdində Alt qrup yaradılmışdır. Çin Baş Gömrük İdarəsi bütün sərhəd keçid məntəqələrində sürətli keçidin təmin edilməsi üçün 7/24 yaşıl zolaqlar yaradıb və sənədləşməni sürətləndirmişdir. Ölkəyə gətirilən dərman, o cümlədən dezinfeksiya edici vasitələr, qoruyucu geyimlər, virsula mübarizə üçün lazım olan tibbi avadanlıqlar və digər ləvazimatlar təxirə salınmadan buraxılır və ixrac edilən dərman vasitələri və ləvazimatların dezinfeksiya edilməsi üçün yaşıl zolaqlar yaradılmışdır. Epidemiya şəraitində virusa qarşı tədbirləri həyata keçirməklə yanaşı Çin Baş Gömrük İdarəsi sosial və iqtisadi inkişafı təşviq etmək üçün daha sürətli rəsmiləşdirmə əməliyyatları, gömrük nəzarətinə minimum müdaxilə, sürətli sertifikatlaşdırma xidmətləri, idxal olunan kənd təsərrüfatı məhsullarının maneəsiz bazara çıxışının təmin edilməsi və biznesin öz xarici ticarət əməlliyyatlarının davam etdirilməsinə kömək və onun gücləndirilməsi istiqamətlərində də tədbirlər görmüşdür.

Amerika Birləşmiş Ştatları

ABŞ Gömrük və Sərhəd Mühafizəsi özünün pandemiya ilə mübarizə və fəaliyyətin davamlılığı planlarının tətbiqinə pandemiyanın ilkin aylarından etibarən başlayıb. Özünün bütün liman, hava limanı, sərhəd keçid məntəqələri, stansiyaları və qlobal miqyasda bütün əməliyyat məntəqələrini lazımi şəxsi mühafizə avadanlıqları ilə təmin edib.

ABŞ Gömrük və Sərhəd Mühafizəsi hər bir ofisində çalışan heyətin sağlamlığını qorumaq üçün Təhlükəsizlik və İş Sağlamlığı mütəxəssisləri fəaliyyət göstərir. Eyni zamanda GSM COVID-19 pandemiyasına qarşı reaksiyasına dəstək üçün Fövqəladə Hallar Mərkəzini yaradıb.

COVID-19-un sürətli yayılmasının qarşısını almaq və hər kəsin sağlamlığını qorumaq üçün ABŞ Gömrük və Sərhəd Mühafizəsi digər federal, ştat və yerli agentliklərlər birgə çalışır, onlarla sıx əməkdaşlıq edir. COVID-19 virusuna yayılmasını ən aza endirmək üçün Gömrük və Sərhəd Mühafizəsinin işçiləri mümkün olan maksimum dərəcədə sosial məsafədən istifadə edir. Gömrük və Sərhəd Mühafizəsi uzaqdan işləmə imkanı olmayan personalının müvafiq fərdi

qoruyucu avadanlıqlar və bu avadanlıqlardan necə istifadə üçün hərtərəfli təlimata hazır olmasını təmin etmişdir. Gömrük və Sərhəd Mühafizəsi bütün personalını müvafiq fərdi qoruyucu avadanlıqlarla bağlı geniş təlimat təqdim etmişdir. Fərdi qoruyucu avadanlıqlar üçün tövsiyyələr göz qoruyucuları, əlcəklər, N95 respirator maskalar, tək istifadə üçün nəzərdə tutulan qoruyucu üst geyimlər və daha çox yoluxucu xəstəlik risklərinə qarşı iş funksiyalarına və iş parametrlərinə əsaslanır. Həmçinin Gömrük və Sərhəd Mühafizəsi COVID-19-un yayılmasına qarşı xüsusi olaraq bütün təsislərinə dezinfeksiya təlimatı vermişdir.

Tibbi ləvazimatların və fərdiq qoruyucu vasitələrin idxalı ilə bağlı olan məsələlərin həlli və onların əlaqələndirilməsi ilə bağlı Gömrük və Sərhəd Mühafizəsinin Əczaçılıq, Sağlamlıq və Kimya Ekspertiza Mərkəzi COVID-19 Karqo Qərar Qrupunu yaratdı. Bu komanda daxil olan sorğuları yoxlamaq, pandemiyaya məruz qalan limanlarla əlaqə yaratmaq və soruğuları cavablandırmaq üçün yaradılan hərtərəfli komandadır.

COVID-19 pandemiyasına görə Vergilər və Rüsumların müvəqqəti dayandırılması- Xəzinədarlıq nazirinin Milli Təhlükəsizlik naziri ilə konsultasiyasından sonra ABŞ Gömrük və Sərhəd Mühafizəsinin qanunvericiliyində bir sıra müvəqqəti dəyişikliklər edildi. Bu dəyişikliklər pandemiyadan dolayı maliyyə çətinliyi ilə üzləşən hüquqi şəxslərin müəyyən tarixdə normalda ödəməli olduqları əvvəlcədən müəyyən edilmiş vergiləri və rüsumları depozitə qoymaq üçün son tarixi təxirə salmaq, Mart və Aprel 2020 tarixində anbarlara gətirilən istehlak mallarının çıxarılması üçün depozitin ödənməsinə 90 gün əlavə vaxt verməkdir(https://www.cbp.gov/newsroom/coronavirus).

Avropa Birliyi

Pandemiyanın yaratdığı krizis Avropa Birliyini gömrük sisteminə yeni qaydalar gətirməyə, gömrük nəzarətini möhkəmləndirməyə və eyni zamanda virusla mübarizə üçün lazım olan mal və avadanlıqların gömrük nəzarətindən keçməsini asanlaşdırmağa məcbur etdi. Qanunvericiliyə bir sıra yeni müddəalar əlavə olunmuşdur ki bunlar da mövcüd xüsusi hal ilə mübarizədə etibarlı həl yolu təmin edir.

Kadrların müvəqqəti olmaması səbəbindən bütün Avropada poçt şirkətləri böyük həcmdə e-ticarət bağlamalarının çatdırılmasının öhdəsindən gəlmək və universal xidmət öhdəliklərini yerinə yetirmək üçün mübarizə aparırlar. Həmin situasiya ekspress daşıyıcılar və aşağı qiymətli yüklərin sərbəst dövriyyəyə buraxılması üçün istehlakçılar adından çıxış edən gömrük agentləri üçün də çətinliklər yaradır. Həmçinin COVID-19-un yaratdığı vəziyyət yükü qəbul edən subyektlərin işinə də maneə törədir. Bu subyektlərdən səlahiyyətlərin alınması isə həmin bazarda fəaliyyət göstərən təsərrüfat subyektləri üçün əlavə inzibati yük yarada bilər. COVID-19 böhranı ilə bağlı xüsusi halları nəzərə alaraq, gömrük orqanları böhran dövründə poçt operatorlarından, ekspress daşıyıcılardan və ya gömrük agentlərindən həyata keçirdikləri gömrük rəsmiləşdirilməsi fəaliyyətləri üçün səlahiyyət verilməsinə dair hər hansı sübut tələb etmədən yeni müddəanı tətbiq edirlər.

Hazırkı fövqəladə şəraitdə təsərrüfat subyektləri tədarük zəncirinin işləməsini və Üzv Dövlətlərin gömrük sərhəddində zəruri olan malların sərbəst hərəkətini təmin etmək üçün bəzi təcili gömrük icazələrini tələb edə bilirlər. Pandemiya şəraitində ticarət subyektlərinə məsləhət görülür ki, gömrük orqanlarına lazımi bütün informasiyanı təqdim etsinlər. Gömrük orqanları meyarların yerinə yetirilməsini qanunvericilikdə nəzərdə tutulmuş müddətdə hər zaman qiymətləndirmək mövqeyində olmalıdırlar. Buna görə də icazənin verilməsi Üzv Dövlətin gömrük orqanının hər bir halda hərtərəfli qərarının predmeti olaraq qalır. Bununla belə, indiki şəraitdə təsərrüfat subyektləri gömrük orqanlarının diqqətini ən təcili tələblərə yönəldə bilməsi üçün yalnız vacib gömrük qərarları üçün müraciət etməyə güclü şəkildə təşviq edilir.

Bir çox subyek gömrük rüsumlarının ödənilməsi müddətinin təxirə salınmasını istəyib. Lakin, Avropa Birliyi Gömrük Məcəlləsinin qanunvericilik bazası hazırda bu böhran səbəbindən gömrük rüsumlarının ödənilməsi müddətlərinin təxirə salınmasını və ya rüsumların tutulmasının dayandırılmasını təmin etmək üçün hüquqi əsasa malik deyil. Və yaxud məcəllə, bir çox subyektlərin tələb etdiyi fors-major hallara əsaslanan ödəniş müddətlərinin dayandırılmasını təmin etmək üçün

hüquqi əsas malik deyil. Məcəlləyə əsasən zəmanət məbləğinin azaldılması və ya təminatdan imtina ilə bağlı mövcud qanunvericilik müddəalarının əhatə dairəsindən kənarda təminat hüdudunu keçmək hüquqi cəhətdən mümkün deyil.

Buna baxmayaraq, Komissiya COVID-19 pandemiyası böhranı zamanı zərərçəkənlər üçün ləvazimatların müvəqqəti idxalının gömrük rüsumlarından və ƏDV-dən azad olmasını təmin etmək üçün tədbirlər görüb ki, bu da bu xüsusi mallar üçün zəmanət tələbini faktiki ləğv edəcək.

Tibbi, cərrahi və laboratoriya avadanlıqları fövqəladə hall olsa belə, ümumi giriş bəyannaməsini təqdim etmək öhdəliyindən azad edilmirlər. Belə halda isə, Avropa Birliyi Gömrük Məcəlləsinin nin 127-ci maddəsinin 7-ci bəndi tibbi, cərrahi və laboratoriya avadanlıqlarının kommersiya, liman və ya nəqliyyat sənədlərindən istifadə etməyə imkan yaradır. Bu şərtlə ki, bu digər sənədlər bəyannamının lazımi təfərrüatlarını özündə ehtiva etsin və malların AB-yə daxil olmasından əvvəl müəyyən müddətə qədər olan zaman limitini keçməsin.

AB-nin gömrük ərazisinə daxil olan birlik üzvü olmayan ölkələrin malları gömrük orqanlarına təqdim edilməlidir. Tibbi, cərrahi və laboratoriya avadanlıqları üçün bu şərtdən azad etmək imkanı olmasa da, belə təqdimat müvəqqəti idxal üçün bu cür malların şifahi bəyannaməsi ilə yerinə yetirilmiş hesab edilə bilər.

Rusiya Federasiyası

Gömrük kadrlarının pandemiya zamanı fəaliyyətini təmin etmək üçün Rusiya Federal Gömrük Xidməti COVID-19 pandemiyası ilə bağlı təcili və uzunmüddətli tədbirlər həyata keçirib. Rusiya Federal Gömrük Xidməti ərzaq, yardım malları və zəruri ləvazimatların sürətli rəsmiləşdirilməsini təmin etmək üçün yaşıl zolaqlar yaratmışdırvə COVID-19 pandemiyasına qarşı dəstək və mübarizə ilə bağlı malların emalına üstünlük vermişdir. İdxal edilən dərman vsitələri və zəruri ləvazimatlar üçün yaşıl zolaqlar minimum sənədləşdirmə müddətini təmin edir. Gömrük orqanlarına gömrük nəzarətini zamanı zəruri olmadığı hallarda əlavə gömrük nəzarəti formalarının tətbiq edilməməsi barədə və risklərin idarə edilməsi əsasında xüsusi göstərişlər verilmişdir.

Rusiya Federal Gömrük Xidməti COVID-19 pandemiyası zamanı texniki reqlamentlərə və sanitar normalara uyğunluq tələblərində asanlaşdırmanı təmin etmişdir. Asanlaşdırma tədbirləri zəruri malların (sanitariya məhsulları, tibbi cihazlar/avadanlıqlar və qida) siyahısı əsasında yardım yüklərinin tədarükünün təhlükəsizliyinə və davamlılığına yönəlib.

Rusiya Federal Gömrük Xidməti sərhəd keçid məntəqələrində pandemiya ilə mübarizədə yardım üçün olan yüklərin rəsmiləşdirilməsinə aşağıdakı üstünlükləri verib:

1. mal bəyannaməsinin gəlişdən əvvəl işlənməsi və malların çatdıqdan sonra buraxılması təmin edilmişdir;
2. gömrük orqanı tərəfindən sənədlərin və məlumatların təqdim edilməsinin prioritetinə təminat verilmişdir.

Ümumiyyətlə, gömrük rəsmiləşdirilməsi COVID-19 pandemiyasına qarşı mübarizə tədbirləri üçün təyin edilmiş lazımi malları prioritet hesab edir.

Gömrük orqanları COVID-19 pandemiyasının təsiri ilə mübarizə məqsədi ilə idxal edilən malların (qoruyucu avadanlıq, sınaq dəstləri və ya ventilyatorlar kimi tibbi cihazlar) idxal rüsumları və ƏDV-dən azad edilməsi ilə bağlı qərar qəbul edib. Rusiya Federal Gömrük Xidməti tibbi ləvazimatlar, sanitariya məhsulları, sınaq dəstləri, qoruyucu və tibbi avadanlıqlar üçün idxal gömrük rüsumlarının aşağı salınması kimi müvəqqəti vergi güzəştləri tətbiq edib. Bundan əlavə, ərzaq məhsullarına (tərəvəz, çovdar, düyü, qarabaşaq, uşaq qidası və s.) ƏDV-nin azaldılması kimi müvəqqəti vergi güzəştləri tətbiq edilmişdir.

Təchizat zəncirinin davamlılığını təmin etmək üçün Rusiya Federal Gömrük Xidməti də bir sıra tədbirlər həyata keçirmişdir. Tranzitdə olan mallar üçün gömrük rəsmiləşdirilməsinin və sonrakı prosedurların sürətləndirilməsi üçün müəyyən asanlaşdırma tədbirləri tətbiq edilib. Yerli gömrük orqanları nəqliyyat vasitələrinin gömrük nəzarəti zonasına daxil olmasına və yükdaşımalarda prioritet zolaqlara üstünlük verilməsi barədə göstəriş vermişdir.

Virus epidemiyası ilə mübarizə aparmaq və tədarük zəncirinin kəsilməsi halında operativ reaksiya vermək üçün aşağıdakıların təmizlənməsi prosesi üçün gündəlik monitorinq və təhlil təşkil edilir:

1. zəruri əşyaların siyahısı əsasında yardım göndərişləri;
2. epidemiya əleyhinə təchizat;
3. qida və maye kimi mallar.

Eyni zamanda, ölkə üzrə yükdaşımaların miqdarının yoxlanılması və sərhəd keçid məntəqələrində növbələrin yaranmasının qarşısını almaq gündəlik monitorinqi tətbiq edilir.

Ümumi olaraq dünya miqyasında karantin və komendant saatının tətbiqi epidemiyanın sürətini nəzərə çarpacaq dərəcədə aşağı saldı. İkinci dalğada isə yeni karantin rejiminin və daha sonra qismən karantin rejminin tətbiqi qlobal miqyasda pandemiyanın yayılmasına qarşı effektiv rol oynadı. Karantin və sərhədlərin bağlanmasının tətbiqi həmçinin istehsala, hava yolu nəqliyyatına qoyulan qadağalar isə onların dayanma nöqtəsinə qədər geriləməsinə səbəb oldu.

Dünya çapında 2020-ci ilin Mart ayından başlayaraq tibbi ləvazimatlar üçün ticarət məhdudiyyətləri qoyulmağa başlandı, istehsal tez-tez dayandırılırdı. COVID-19 kimi fövqəladə hallar zamanı mühüm tibbi malların və fərdi mühafizə vasitələrinin, dərman/kimyəvi maddələrin və qida məhsullarının tədarükünü təmin etmək üçün sərhədləri transmilli ticarət üçün açıq saxlamaq çox vacibdir. Buna görə də ticarətin asanlaşdırılması, sərhədlərin açıq tutulması və zəruri malların sürətli çatdırılmasını təmin etmək məqsədilə ÜGT üzvlərini elan edilən ticarətin asanlaşdırılması tədbirlərini tətbiq etməyə çağırıb.

ÜTT Ticarətin Asanlaşdırılması Sazişi və ÜGT-nin Yenidən İşlənmiş Kyoto Konvensiyasına uyğun olaraq Dünya Ticarətinin və əmtəələrin sərhədlər arasında sərbəst hərəkətini təmin etməyə çağırıb ki bu da dənizə çıxışı olmayan və inkişaf etməkdə olan ölkələr üçün zərurətdir. Beynəlxalq Təşkilatlar və dünya ictimaiyyəti yardım məlumat bazaları və təlimat və ya hesabatlarla, eyni zamanda qloballaşma dövründə qlobal ticarət üçün görünməmiş təhlükə ilə bağlı birgə bəyannamələr və

xəbərdarlıqlarla reaksiya verdilər. Bunun nəticəsidir ki 2020-ci ilin payızından etibarən ticarət məhdudiyyətləri məsələsi azalmışdır.

Türkiyə Respublikası

Türkiyə epidemiyaya qarşı yardım materiallarının transsərhəd hərəkətini asanlaşdırmaq səyləri ilə ÜGT-nin hesabatına daxil edilmişdir. Hesabata görə, Türkiyəyə vəqflər tərəfindən idxal edilən malların, epidemiyanın mənfi təsirini göstərdiyi başda ictimai dərnəklər, ictimai qurum və təşkilatlar olmaq şərtilə və pulsuz paylanması şərti ilə bu malların vergidən azad edilməsinə qərar verilib.

Gömrük Qanununun6 10-cu maddəsinə əsasən, epidemiya halında gömrük prosedurlarının sadələşdirilməsi və zəruri tədbirlərin görülməsi səlahiyyəti Ticarət Nazirliyinə məxsusdur. Gömrük əməliyyatlarını uzaqdan təqib etmək üçün Ticarət Nazirliyinə bağlı Gömrük Baş İdarəsi tərəfindən müxtəlif proqramlar hazırlanmışdır;

1) Liman Tək Pəncərə Sistemi gəminin limana daxil olarkən və limandan çıxarkən təqdim etməli olduğu bütün sənədləri vahid elektron ünvana göndərmək üçün hazırlanmışdır (TC Ticarət Nazirliyi, 2020c).

2) 'Bilgə Sistemi' bütün ixrac bəyannaməsi və sənəd təqdimetmə ərizələrinə elektron şəkildə baxa bilməsi üçün hazırlanmışdır;

3) Səlahiyyətli yükü qəbul edən və ya səlahiyyətli yükgöndərən olmaq üçün lazım olan faylların əksəriyyəti e-hökumət platforması vasitəsilə yüklənə bilər və müvəqqəti idxal və ya xaricə emal icazəsi kimi icazələr də e-hökumət platforması vasitəsilə əldə edilə bilər

ÜTT Ticarətin Asanlaşdırılması Sazişi və ÜGT-nin Yenidən İşlənmiş Kyoto Konvensiyasına uyğun olaraq Dünya Ticarətinin və əmtəələrin sərhədlər arasında sərbəst hərəkətini təmin etməyə çağırıb ki bu da dənizə çıxışı olmayan və inkişaf etməkdə olan ölkələr üçün zərurətdir. Beynəlxalq Təşkilatlar və dünya ictimaiyyəti yardım məlumat bazaları və təlimat və ya hesabatlarla, eyni zamanda qloballaşma dövründə qlobal ticarət üçün görünməmiş təhlükə ilə bağlı birgə bəyannamələr və xəbərdarlıqlarla reaksiya verdilər. Bunun nəticəsidir ki 2020-ci ilin payızından etibarən ticarət məhdudiyyətləri məsələsi azalmışdır.

COVID-19 pandemiyası dünya ölkələri və xalqları arasındakı güclü qarşılıqlı əlaqələri gücləndirib. Qloballaşan ticarət əlaqələri və təchizat zənciri, sərbəst səyahət, nəqliyyat və kommunikasiyada yeniliklər dünya xalqlarını ortaq yeni bir həyat tərzində birşləşdirdi. İnsan gözünə görünməyən, çox tez yayılan tənəffüs patogeni olan yeni Koronavirus çox qısa bir vaxt ərzində Şərqi Asiyadan bütün dünyaya yayıldı.COVID-19 iqtisadi cəhətdən nəinki inkişaf etməkdə olan ölkələr, hətta ən inkişaf etmiş ölkələrin səhiyyə sisteminə böyük təzyiq göstərib. Daha öncədən hazırlıqsız olan bütün ölkələr yeni fövqəladə vəziyyətə uyğunlaşmalı oldurlar. Hər bir ölkə özlüyündə bu yüksək dərəcə keçici olan virusun yayılmasını yavaşlatmaq üçün yeni layihələr hazırlayıb, islahatlar həyata keçirdilər.Ölkələr pandemiyada vətəndaşlarına ilk növbədə sosial özünü təcrid və şəxsi gigiyenaya daha çox önəm vermə daha sonra isə maskadan istifadə və sosial məsafə, ən sonda isə COVİD-19 əleyhinə peyvəndlər kimi müxtəlif təcrübələri tətbiq etdilər. Bütün bunlara baxmayaraq, COVID-19 pandemiyası indiki dövrdə ölkələr və hökumətlər arasında birgə əməkdaşlığı böyütməyin nə qədər çətin olduğunu da üzə çıxartdı.

## 3.2.Pandemiya dövründə dərman və dezinfeksiya mallarının İdxal ixracına gömrük nəzarətinin dünya təcrübəsi

Pandmeiyadan böyük zərbə alan qlobal ticarət, pandemiyanın səngiməsi ilə, 2021-ci ildə kəskin şəkildə artmağa başladı. 2021-ci ilin birinci yarısında dünya ticarəti keçən ilin həmin dövrünə nisbətdə 29% artım göstərmişdir. Bu rəqəm isə

2020-ci ilin birinci yarısında əmələ gələn -14% azalmadan sonra olduqca önəmli bir bərpadır.

Pandemiya dövründə isə sürpriz deyil ki tibbi avadanlıqların, dərman və dezinfeksiya vasitələrinin alış-satışında artım olub. 2021-ci ilin 12.4% artım göstərən bu bazar keçən ilin həmin dövrünə, yəni 2020-ci ilin ilk yarısına görə isə daha yavaş artım göstərib. 2020-ci ilin ilk yarısında bu rəqəm 17.1% idi.

**Qrafik 6: 2020-2021-ci illər arasında tibbi vasitələrin qlobal ticarətində böyümə**




**Mənbə:** Ümumdünya Ticarət Təşkilatı(ÜTT)( https://www.wto.org/english/tratop_e/covid19_e/medical_goods_update_dec21_e.pdf)

Pandemiyanın başlanmasının 2-ci yarısından etibarən tibbi avadanlıqlar və drəman vasitələrinin alış-satışı ümumi qlobal ticarətin 5.6 fazini əhatə edirdi. Bu sektorun qlobal ticarətdə payı ildən ilə daha da artmaqdadır. 2021-ci ilin 2-ci yarısında tibbi vasitələrin dünya ticarətində payı 6.1%-ə bərabər olmuşdur.

Əsasən 4 fərqli tibbi vasitənin ticarəti son iki ildə daha da artmışdır. COVID-19 pandemiyasının başlanğıcından etibarən ən yüksək böyümə faizi fərdi qoruyucu vasitələrdə (əsasən də tibbi maskalar) nəzərə çarpmışdır. Peyvəndlərin hazırlanıb

bitirilməsi, vaksinasiya prosesinin başlanması ilə birlikdə tibbi ləvazimatların alış-satışı da sürətlə artmışdır. Bu dövrdə tibbi ləvazimatların illik artımı 34.8%-ə bərabər olmuşdur ki, ən çox artım peyvəndlərin vurulması və çatdırılmasında önəmli rolu olan tibbi ləvazimatlarda( şpritslər, plastik əlcəklər, iynələr və.s) görülmüşdür.

2020-ci ilin ilk yarısında 44.4%-ə fərdi qoruyucu vasitələrin artımı dayanmış, 2021-ci ilin həmin dövründə bu faiz -14.4%-ə bərabər olmuşdur. COVID-19 ilə mübarizədə lazım olan kritik məhsullarının illik artımı 2020-ci ilin ikinci yarısında 34 faizlik güclü artım, 2021-ci ilin birinci yarısında 3,1 faizə qədər yavaşlamışdır.

2020-ci ilin ilk yarısında fərdi qoruyucu vasitələrin bazar payında ən böyük payı 70% ilə üz maskaları tuturdu. Daha sonradan tibbi maskaların tutduğu bazar payı daha da azalmış, 2021-ci ilin ilk yarısında 59%-ə düşmüşdür. Pandemiyanın başlanğıcında tibbi maskaların qiymətində kəskin artım müşahidə olunmuşdur. Bu artım daha çox tibbi maskaların azlığı üzündən yaranırdı. Yerli istehsalın artımı ilə tibbi maskaların tədarükündə yaranan artım qiymətlərin aşağı düşməsinə və stabilləşməsinə gətirib çıxardı.

Tibbi ventilyatorlara olan tələb pandemiyanın baş verməsi ilə kəskin sürətdə artdı. Bu kəskin artım malın bazar qiymətini hardasa ikiyə qatlamış, qiymətində 95.3% artım görülmüşdür. Bu artım sonradan stabilləşmişdir çünki, bu tərz tibbi ləvazimatlar həm yenidən istifadə oluna bilən və dözümlü həm də xəstəxananın tutumundan asılıdır. 2021-ci ilin birinci yarısında bu malın bazar dəyəri 2020-ci ilin eyni dövrü ilə müqayisədə 5 faiz azalıb.

Virusun yayılmasını izləmək üçün testlər hələ də geniş istifadə olunur və test dəstləri və diaqnostik reaktivlərə tələbat azalmadan qalmaqda davam edir. 2020-ci ilin birinci yarısından bəri COVID-19 testlərinin ixracı və idxalında ikirəqəmli artım qeydə alınıb və 2021-ci ilin birinci yarısında artım 54,5 faiz təşkil edib.

COVID-19 peyvəndlərinin hazırlanması və təsdiqlənməsindən sonra vaksinlərin tətbiqi üçün vacib olan məhsulların tədarükü mühüm əhəmiyyət kəsb edir. Bu mallar yüksək dəyərli məhsullar kimi görünməyə bilər və onların payı tibbi ləvazimatların bazarında cüzi paya malik olsa belə, 2021-ci ilin birinci yarısında tibbi əlcəklər və spristlərin bazar payı iki dəfədən çox artaraq 2,6 faizə çatmışdır.

**Qrafik 7: Tibbi malların ticarətdə payı**




| | 2019 ikinci yarımil | 2020 birinci yarımil | 2020 ikinci yarım il | 2021 birinci yarımil |
|---|---|---|---|---|
| Fərdi qoruma vasitələri | 13.6 | 16.8 | 18.1 | 13.8 |
| Dərman vasitələri | 55.5 | 53.1 | 51.3 | 54.4 |
| Tibbi ləvazimatlar | 16.7 | 16.2 | 18.4 | 19.5 |
| Tibbi avadanlıqlar | 14.2 | 12.6 | 13.5 | 12.3 |

**Mənbə:**ÜTT(https://www.wto.org/english/tratop_e/covid19_e/medical_goods_update_dec21_e.pdf)

COVID-19-un ilkin dövrlərində ölkələrin fövqəladə vəziyyətə qarşı qəbul etdikləri yeni qərarlar, karantin qaydaları sərhəd keçid məntəqələrində yük maşınlarının yığılmasına, lazım olan dərman vasitələrinin ölkəyə tez bir zamanda çata bilməməsinə səbəb olurdu. Bu problemləri aradan qaldırmaq üçün pandemiya dövründə hökümətlər tez bir zamanda innovativ və çevik tədbirlər gördülər. Bu tədbirlər əsasən sərhəd boyu ticarətin axınını saxlamaq və ən əsası isə virusla mübarizədə önəmli rol oynayan peyvənd, dərman və dezinfeksiya vasitələri, tibbi avadanlıqlar və yeyinti məhsullarının ölkəyə axınını pozmamağa yönəlmişdir. Bu tədbirlərin çoxunun əsasında gömrük nəzarətini və sənədləşmə prosesini sürətləndirmək, gömrük rüsumları və əlavə ödənişləri təxirə salmaq və ya azad etmək, lazımi sənədlərin skan olunmuş versiyalarının qəbulu və gömrük orqanlarının digitalizasiya prosesini sürətləndirmək dururdu. Bu logistik maneələrin

aradan qaldırılmasına yönəlmiş islahatlar bir çox ölkələrə ticarət axınını dəstəkləməyə kömək etmişdir.

Bu islahatlardan əlavə, hökümətlər eyni zamanda ixraca xüsusən də tibbi ləvazimatlar, dərman və dezinfeksiya vasitələrinin ixracına məhdudiyyətlər gətirmişdir. Bu tərz məhdudiyyətləri tətbiq edən ölkələr içində ÜTT üzləri də var, halbuki belə məhdudiyyətlər ÜTT üzvlərinin öhdəliklərinə ziddir. Bu öhdəliklərdə fövqəladə hal zamanı istisnalar mövcuddur. Pandemiyanın ilkin dövrlərində ixracı məhdudlaşdıran tədbirlərin həyata keçirilməsi artmaqda idi. 92 ölkə bu cür tədbirləri tətbiq edib, yalnız iki ölkə – Yamayka və Zambiya ixracın liberallaşdırılması tədbirləri həyata keçirmişdir.

Ümumilikdə pandemiya dövründə həyata keçirilən tədbirlərin əsas məqsədi gömrük nəzarətində yaranan gecikmələri aradan qaldırmaq, ticarətin axınını pozmamaq və pandemiyanın yayılmasını yavaşlatmaq olmuşdur. COVID-19-un ilkin dövrlərində ölkələrin fövqəladə vəziyyətə qarşı qəbul etdikləri yeni qərarlar, karantin qaydaları sərhəd keçid məntəqələrində yük maşınlarının yığılmasına, lazım olan dərman vasitələrinin ölkəyə tez bir zamanda çata bilməməsinə səbəb olurdu. Bu problemləri aradan qaldırmaq üçün pandemiya dövründə hökümətlər tez bir zamanda innovativ və çevik tədbirlər gördülər.

**Şəkil 1: COVID-19 müvəqqəti ixrac məhdudiyyəti tətbiq edən ölkələr**



İxraca məhdudiyyət( 92 ölkə)

İxracın liberallaşdırılması( 2 ölkə)



**Mənbə:** Beynəlxalq Ticarət Mərkəzi (ITC), 2020

ÜTT-nin məlumatlarına görə 72 üzv ölkəsi gömrük sərhəddində ixrac əməliyyatlarına məhdudiyyətlər gətirib. İndiyədək toplanmış məlumatlar ixracı qadağan edilmiş və ya məhdudlaşdırılmış məhsullar baxımından böyük dərəcədə dəyişkənliyin olduğunu göstərir.Bu ixrac məhdudiyyətləri və qadağaları ÜST/ÜGT birgə indikativ siyahısında 16 fərqli növdə, COVID-19 ilə mübarizədə vacib olaraq təyin olunan məhsulların ixracına təsir göstərir. Üz və göz qoruyucu vasitələri, qoruyucu geyimlər, sanitarlaşdırıcılar və dezinfeksiyaedici maddələr ən çox təsirlənən kateqoriyadır. 14 üzv və üç müşahidəçi üzv də qida məhsullarına ixrac qadağaları və ya məhdudiyyətlər tətbiq edib. İndiyə qədər yalnız bir üzv (Banqladeş) müvəqqəti ixrac qadağasının aradan qaldırılması barədə məlumat verib.

Avropa Birliyinə üzv ölkələr Avropa Komissiyasının qərarları ilə yanaşı öz gömrük sərhədlərində özlərinin qərarlarını da tətbiq edirlər. Bu ölkələrdən biri olan Avstriya öz gömrük orqanlarında bütün xarici gömrük audit yoxlamaları və biznes sahəsi üçün hər hansı bir yoxlama tələb edən gömrük nəzarəti sistemi müvəqqəti olaraq təxirə salınmışdır.

**Qrafik 8: İxrac qadağaları və məhdudiyyətləri tətbiq edən ölkələrin və ayrı-ayrı gömrük ərazilərinin məhsulların kateqoriyaları üzrə sayı**




**Mənbə:** ÜTT, 2020

Avropa Komissiyası bütün Üzv Dövlətləri qoruyucu avadanlıqlara, sınaq dəstlərinə və ya ventilyatorlar kimi tibbi cihazlara gömrük rüsumları və ƏDV-ni müvəqqəti dayandıran bir sıra qərarlarla dəstəkləməkdədir. Həmin tədbirlər həkimlərin, tibb bacılarının və xəstələrin çox ehtiyac duyduğu tibbi avadanlıqları əldə etməyi maliyyə cəhətdən asanlaşdırmışdır. İlkin tədbirlər altı ay tətbiq edilsə də, rüsum və vergilərdən azadolma üç dəfəyə qədər uzadılıb.

1 yanvar 2022-ci il tarixindən qüvvəyə minən yeni qərara əsasən vergi və rüsumlardan azadolmanın bir daha uzadılmasında maraqlı olan 23 AB Üzv Dövlətinə idxal üçün bu mühüm məhsullar üzrə gömrük rüsumlarını və ƏDV-ni dayandırmağa davam edir. Vergi və rüsumlardan azadolma 30 iyun 2022-ci il tarixinədək tətbiq olunmağa davam edəcək.

Rüsumsuz və ƏDV-siz idxal aşağıdakılara şamil edilir:

1. Dövlət təşkilatları (dövlət orqanları, ictimai qurumlar və ictimai qanunla idarə olunan digər orqanlar, o cümlədən xəstəxanalar, hökumət təşkilatları, kommunalar/şəhərlər, regional hökumətlər və s.);
2. AB Üzv dövlətlərin səlahiyyətli orqanları tərəfindən təsdiq edilmiş xeyriyyə və ya xeyriyyə təşkilatları.

Bu tətbiq 2022-ci ilin sonuna qədər və ya Avropa Komissiyanın ƏDV dərəcələri ilə bağlı yeni qaydalar təklifi ilə bağlı razılıq əldə olunana qədər qüvvədə qalacaqdı. 2021-ci il dekabrın 7-də Avropa İttifaqının maliyyə nazirlərinin bu təkliflə bağlı razılığa gəldiyini nəzərə alaraq, ƏDV dərəcələri ilə bağlı yeni qaydalar qüvvəyə mindikdən sonra COVID-19 peyvəndləri və COVID-19 sınaq dəstləri üçün ƏDV-dən azad olmağa imkan verən xüsusi qaydalar qüvvəsini itirəcək. Bunun 2022-ci ilin yazında baş verəcəyi gözlənilir.

Avropa Komissiyası AB-yə üzv dövlətlərə sərhəd tədbirləri ilə bağlı COVID-19 təlimatları verib. Eyni zamanda Komissiya qaydaları qəbul edir ki, ayrı-ayrı üzv dövlətlər COVID-19-a qarşı qoruyucu tədbirlər görə bilərlər. Bununla belə, istənilən bu cür tədbirlər şəffaf, mütənasib, müvafiq və rejimə xas, eləcə də ayrı-seçkiliyə yol verməməlidir.

Avropa Birliyinə üzv ölkələr Avropa Komissiyasının qərarları ilə yanaşı öz gömrük sərhədlərində özlərinin qərarlarını da tətbiq edirlər. Bu ölkələrdən biri olan Avstriya öz gömrük orqanlarında bütün xarici gömrük audit yoxlamaları və biznes sahəsi üçün hər hansı bir yoxlama tələb edən gömrük nəzarəti sistemi müvəqqəti olaraq təxirə salınmışdır. Ancaq ki, bu tətbiq sənədlərin və idxal, ixrac, tranzit üçün malların partiyalarının yoxlanılmasına tətbiq edilmir. Eyni zamanda Avstriya höküməti pandemiyadan zərər çəkən şirkətlərin vergi ödəmələrini təxirə salmaq və farmasiya istehsalat obyektləri dezinfeksiyaedici maddələrin istehsalı üçün denaturasiya olunmamış spirtdən vergisiz istifadəsi haqqında qərar qəbul etmişdir.

15 mart 2020-ci il tarixində, COVID-19 epidemiyasının nəticələrinə cavab tədbirlərinin bir hissəsi olaraq, Aİ Komissiyası bir sıra fərdi qoruyucu vasitələrin ixracının ixrac icazısi ilə İcra Qaydasını dərc etdi. Buna görə də Belçika gömrüyü daimi olaraq əhatə dairəsində olan məhsulların ixracını fəal şəkildə izləyir və

tələblərə uyğun gəlməyən göndərişləri müsadirə edir. Belçika eyni zamanda müəyyən şərtlər altında əczaçılar tələb olunan icazələrə malik olmadan da etil spirtini denatürasiya edə və aksiz rüsumlarından tam azad olmaqla özlərinin dezinfeksiyaedici maddələrinin istehsalını mümkün edən qərar layihəsini də təsdiq edib.

Avropa Komissiyasına görə:

1. AB-yə üzv dövlətlər malların sərbəst dövriyyəsini qorumalı və dərmanlar, tibbi avadanlıqlar, zəruri və tez xarab olan ərzaq məhsulları və heyvandarlıq kimi vacib məhsulların tədarük zəncirini qorumalıdır.
2. Vahid bazarda malların, xüsusilə də sağlamlığa aid olan və tez xarab olan malların, məsələn, ərzaq mallarının dövriyyəsinə, lazımi əsaslandırma olmadan, heç bir məhdudiyyət qoyulmamalıdır.
3. Üzv dövlətlər yük daşımaları üçün prioritet zolaqlar təyin etməlidirlər (məsələn, yaşıl zolaqlar) və mövcud olan həftə sonu qadağalarından imtina etməyi nəzərdən keçirməlidirlər.
4. Malların və xidmətlərin daşınmasını təmin etmək üçün peşəkar səyahətlər təmin edilməlidir. Buna nəqliyyat işçilərinin, o cümlədən yük maşını və qatar sürücülərinin, pilotların və hava heyətinin daxili və xarici sərhədlər boyunca təhlükəsiz hərəkətinin asanlaşdırılmasına aiddir.
5. Nəqliyyatla bağlı planlaşdırılan hər hansı məhdudiyyətlər Komissiyaya və üzv dövlətlərə bildirilməlidir.
6. Aİ-nin vahid bazarında qanuni dövriyyədə olan mallara əlavə sertifikatlar tətbiq edilməməlidir.

COVID-19 epidemiyası ilə mübarizə üçün Komissiya Aİ-dən müəyyən fərdi qoruyucu vasitələrin ixracını ixrac icazəsi ilə həyata keçirirdi. Bu tədbirlər 15 mart 2020-ci ildə qüvvəyə minmiş və altı həftə qüvvədə qalmışdır. Tədbirlərin əhatə etdiyi məhsulların siyahısı Komissiyanın İcra Qaydasının Əlavə I-də verilmişdir və qoruyucu maskalar, geyimlər və əlcəklər kimi məhsulları özündə ehtiva edir.

Bu tətbiqin əsasnaməsinə edilən son düzəlişlə Avropa Komissiyası Norveç, İslandiya, Lixtenşteyn və İsveçrəyə ixracı icazə tələbindən azad etmişdir. Oxşar

istisna Andorra, Farer adaları, San Marino və Vatikana, habelə Danimarka, Fransa, Hollandiya və Böyük Britaniya ilə xüsusi əlaqələri olan əlaqəli ölkələrə və ərazilərə də verilmişdir.

İxrac icazələri üzv dövlətlərin səlahiyyətli orqanları tərəfindən verilir. Avropa Komissiyası bu cür icazələrin verilməsi üçün müvafiq proseslər və prosedurlar üzrə praktiki təlimatlar təqdim etmişdir. Prinsipcə, üzv dövlətlər, sözügedən üzv dövlətin bazarında və ya Aİ-nin başqa yerlərində fərdi qoruyucu vasitələrin mövcudluğuna heç bir təhlükə olmadığı halda ixrac icazələrini verməyə davam edə bilərlər.

Bu dövrdə Azərbaycan Respublikasının pandemiya ilə mübarizə və sərhədlərinin qorunması istiqamətində idxal və ixrac əməliyyatları üçün gördüyü tədbirlər:

1) Tibbi ləvazimatların, steril əlcək, tibbi maska, üz və göz qoruyucu vasitələrin ixracına qadağa;

2) Tibbi maska istehsalı üçün lazım olan xammal materiallarının idxalında rüsumların azaldılması;

3) Baxil, tibbi əlcək, tibbi maska və respiratorların idxalında rüsumların azaldılması.

Ümumilikdə pandemiya dövründə həyata keçirilən tədbirlərin əsas məqsədi gömrük nəzarətində yaranan gecikmələri aradan qaldırmaq, ticarətin axınını pozmamaq və pandemiyanın yayılmasını yavaşlatmaq olmuşdur. COVID-19-un ilkin dövrlərində ölkələrin fövqəladə vəziyyətə qarşı qəbul etdikləri yeni qərarlar, karantin qaydaları sərhəd keçid məntəqələrində yük maşınlarının yığılmasına, lazım olan dərman vasitələrinin ölkəyə tez bir zamanda çata bilməməsinə səbəb olurdu. Bu problemləri aradan qaldırmaq üçün pandemiya dövründə hökümətlər tez bir zamanda innovativ və çevik tədbirlər gördülər. Bu tədbirlər əsasən sərhəd boyu ticarətin axınını saxlamaq və ən əsası isə virusla mübarizədə önəmli rol oynayan peyvənd, dərman və dezinfeksiya vasitələri, tibbi avadanlıqlar və yeyinti məhsullarının ölkəyə axınını pozmamağa yönəlmişdir. Bu tədbirlərin çoxunun əsasında gömrük nəzarətini və sənədləşmə prosesini sürətləndirmək, gömrük rüsumları və əlavə ödənişləri təxirə salmaq və ya azad etmək, lazımi sənədlərin skan

olunmuş versiyalarının qəbulu və gömrük orqanlarının digitalizasiya prosesini sürətləndirmək dururdu. Bu logistik maneələrin aradan qaldırılmasına yönəlmiş islahatlar bir çox ölkələrə ticarət axınını dəstəkləməyə kömək etmişdir.

### 3.3. Dövlət Gömrük Komitəsinin pandemiyada uğurları və baş verə biləcək gələcək qlobal təhlükələrə qarşı hazırlığı

Azərbaycan COVID-19 ilə mübarizə və pandemiyanın əhaliyə təsirini minimuma endirmək üçün möhkəm strategiya qəbul edib. Milli hakimiyyət

orqanları insan mərkəzli yanaşma ilə COVID-19-un yayılmasının qarşısını almaq üçün bir sıra tədbirlər həyata keçirib. Azərbaycan Respublikası Nazirlər Kabineti 30 yanvar 2020-ci il tarixdə yeni növ koronavirusun ölkədə geniş yayılmasının qarşısının alınmasına dair Tədbirlər Planı təsdiqləyib. Koronavirusun ölkədə yayılması ilə əlaqədar hökumət tərəfindən həyata keçirilən tədbirlərin əlaqələndirilməsi məqsədi ilə 27 fevral 2020-ci il tarixdə Nazirlər Kabineti yanında aidiyyəti qurumların rəhbər işçilərindən ibarət Operativ Qərargah yaradılıb. Bu qərargah koronavirusun bütün dünyada yayılması təhlükəsinə qarşı Azərbaycan Respublikasının reaksiyasını koordinasiya edir.

Yuxarıda göstərilən Tədbirlər Planının və Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarlarının icrası məqsədilə Gömrük İdarəsi tərəfindən aşağıdakı tədbirlər həyata keçirilib:

1. Bütün gömrük-sərhəd buraxılış məntəqələri gücləndirilmiş iş rejimində işləməyə başlayıb;
2. Azərbaycan Respublikası ilə İran İslam Respublikası, Gürcüstan və Rusiya Federasiyası arasında dövlət sərhədinin müvəqqəti bağlanması barədə qərar bu ölkələrin vətəndaşlarının təhlükəsizliyinin təmin edilməsi və sağlamlığının qorunması məqsədilə qarşılıqlı razılaşma əsasında qəbul edilib;
3. İran İslam Respublikasından və ya onların ərazisindən yük avtomobilləri ilə gətirilən mallar gömrük sərhəd-keçid məntəqələrinin yaxınlığında yerləşən terminallarda Azərbaycan Respublikasına yük avtomobilləri ilə daşınır;
4. İlkin olaraqİran İslam Respublikasından gələn yük avtomobillərinin xüsusi tranzit dəhlizindən polis müşayiəti ilə daşınmasına icazə verən qərar qəbul edilib;
5. COVID-19-un müalicəsi üçün tələb olunan malların sürətli və rahat daşınması xüsusi prioritet halına çevrilib;
6. Kadrlar Səhiyyə Nazirliyinin mütəxəssisləri tərəfindən təlim keçmişdir;
7. işçilər üçün əlcəklər, maskalar, kombinezonlar və eynəklər kimi təqdim edilmiş fərdi qoruyucu vasitələrdən istifadə etmək məcburidir;

8. əllərin yuyulması və dezinfeksiya edilməsi, səthlərin və ictimai yerlərin dezinfeksiya edilməsi kimi müvafiq gigiyena tədbirləri;

9. yük maşınlarının və nəqliyyat vasitələrinin dezinfeksiya edilməsi;

10. risk zonalarında olmuş şəxslər risk zonalarından qayıtdıqdan sonra 14 gün ərzində ofisə daxil ola bilməzlər;

11. bütün gömrük sərhəd-keçid məntəqələrində sərnişinlər arasında COVID-19-un qarşısının alınması ilə bağlı ÜST-nin tövsiyələrini əks etdirən vərəqələrin davamlı olaraq paylanılması;

12. təyyarələrdə, gəmilərdə və avtobuslarda bədən istiliyinin yoxlanılması;

13. hava limanlarında, dəniz limanlarında və yerüstü giriş məntəqələrində uçuş zamanı bədən istiliyinin yoxlanılması və sağlamlıq haqqında sorğu;

14. hərarət və ya öskürək kimi simptomları olan şübhəli sərnişinlərin əlavə müayinə və müşahidə üçün təcrid edilməsi və xəstəxanaya köçürülməsi;

15. Nazirlər Kabineti yanında Operativ Qərargahın müvafiq qərarında qeyd olunan ölkələrə son 28 gün ərzində səfər etmiş sərnişinlərin təcrid edilməsi və sonrakı müayinə və müşahidə üçün xəstəxanaya köçürülməsi;

16. Gömrük ərazisinə girdikdə sərnişinlərindən ünvanı, əlaqə məlumatları və son 28 gün ərzində səfər etdikləri ölkələr haqqında bütün lazımi məlumatları göstərən sağlamlıq bəyannamə formalarını doldurmaları tələb olunur;

17. müvafiq qurumlar arasında davamlı məlumat mübadiləsi.

Bunlarla yanaşı 20 Aprel 2020-ci il tarixində Dövlət Gömrük Komitəsi tərəfindən Yüklərin Hədəflənməsi sisteminin qurulmasının başa çatması münasibətilə onlayn formatda görüş baş tutdu. Görüşdə Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriya Dövlət Gömrük Komitəsini Yüklərin Hədəflənməsi sisteminin uğurlu tətbiq edilməsi münasibətilə təbrik edib. Yüklərin Hədəflənməsi Sistemi və ya Karqo Hədəf Sisteminin əsası Ümumdüyna Gömrük Təşkilatı tərəfindən 2012-ci ildə qoyulub. Bu sistemin məqsədi risklərin analizi və qiymətləndirilməsində hədəflənməni həyata keçirərək gömrük işçilərinə yardım etməkdir. ÜGT-nin sisteminin tətbiqinin üstünlüklərindən faydalanmaq və sistemin tətbiqi məqsədilə işçi qrup yaradılıb. Azərbaycanda risklərin idarə olunması

sisteminin tətbiqi, xüsusəndə gömrük sistemində belə sistemin qurulması Gömrük Komitəsinin daha bir nəaliyyətidir.

Pandemiyaya qarşı beynəlxalq mübarizəyə dəstək və virusdan əziyyət çəkən dünya ölkələri ilə həmrəylik məqsədi ilə Azərbaycan Respublikası Ümumdünya Səhiyyə Təşkilatına 5 milyon dollar həcmində ianə etmişdir. Bu ianəyə əlavə olaraq Qoşulmama Hərəkatının sədri kimi əlavə 5 milyon dollar dəyərində ianə pandemiyadan zərər çəkmiş digər Qoşulmama Hərəkatı üzv ölkələrinə yardım kimi Ümumdünya Səhiyyə Təşkilatına göndərilmişdir. Bu münasibətlə Ümumdünya Səhiyyə Təşkilatı Baş direktoru Azərbaycan Respublikası prezidenti İlham Əliyevə ölkəsinin pandemiya dövründə dəstəyi üçün təşəkkürləeini bildirmişdir. Azərbaycan həmdə pandemiyadan zərər çəkmiş 30-dan çox fərqli ölkəyə texniki, tibbi, maliyyə dəstəyi göstərmişdir.

Dövlət Gömrük Komitəsi ilə birgə ona bağlı olan digər orqanlarda pandemiya dövründə bütün potensiallarını səfərbər etmişlər. İyunun 11-dən etibarən Mərkəzi Gömrük Hospitalı yalnız koronaviruslu xəstələri qəbul etməyə başlayıb. Dövlət qurumunun tabeliyində olan nüfuzlu xəstəxana koronavirusla mübarizədə hökumətə kömək etmək məqsədilə öz işini tamamilə yenidən qurub. Ölkə üçün kritik bir məqamda Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsi öz tibb xidmətini yenidən qura və bütün potensialını koronavirusla mübarizəyə səfərbər edə bilmişdir.

Digitalizasiya prosesinin davamı olaraq Dövlət Gömrük Komitəsi İtaliya Gömrük və İnhisar Agentliyi ilə Tvinninq prinsipi əsasında əlaqələrini daha da genişləndirmişdir. COVID-19 pandemiyası ölkəmizdə və dünyada pandemiyaya qarşı cəmiyyəti marifləndirmiş, insanları şəxsi gigiyenaya daha da diqqət yetirməyə vadar etmişdir. Eyni zamanda ölkələri də yeni bir pandemiyaya qarşı hazırlamış olmaqla yanaşı, gömrük orqanlarının pandemiya dövründə necə mühüm rol oynadığını göstərmişdir.  Dövlət Gömrük Komitəsinin pandemiya dövründə sərhədləri qorumaq üçün gördüyü tədbirlər və pandemiyaya qarşı verdiyi cəld reaksiya elə onun gələcəkdə baş verə biləcək yeni bir pandemiyaya necə hazır olduğunu göstərir.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Qloballaşma dövründə dünya ölkələri ilə sıx iqtisadi və siyasi münasibətdə olan Azərbaycan Respublikası da, pandemiyanın gətirdiyi çətinliklərlə üzləşməli və bu çətinliklərə qarşı tədbirlər görmək məcburiyyətində qaldı. Azərbaycan Respublikasının vətəndaşlarının və sərhədlərinin qorunmasında əsas rollardan birini üstlənən Dövlət Gömrük Komitəsi də bu tədbirlərin keçirilməsinin əsas obyektlərindən biri olmuşdur. Azərbaycan Respublikasi Nazirlər Kabinetinin Azərbaycan Respublikasının ərazisində xüsusi karantin dövründə iş rejiminin tənzimlənməsi barədə 31 mart 2020-ci il tarixli Qərarına əsasən Azərbaycan Respublikasının ərazisində elan edilmiş xüsusi karantin dövründə rəhbərləri və zəruri halda işçiləri işə cəlb edilən dövlət orqanlarının və qurumlarının siyahısındakı

dövlət orqanlarından biri də elə məhz Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi idi.

Gömrük nəzarəti fiziki və hüquqi şəxslər tərəfindən yüklərin, nəqliyyat vasitələrinin, valyuta və sərvətlərin idxal və ixracının müəyyən olunmuş qanun və qaydalarla tənzimlənməsi üçün gömrük orqanlarının həyata keçirdiyi lazımi tədbirlərdir. Bu tədbirlər biləvasitə olaraq ölkənin iqtisadi inkişafına təsir edir, onun maraqlarının qorunmasında mühüm rol oynayır. Əvvəllər bu nəzarət sistemi daha çox fiskal aspektlərə fokuslanmış olsa da, son dövrlərdə bu fokusun təhlükəsizlik və ətraf mühitin müdafiəsi sahəsində artdığı görünür. Bu nəzarət sistemi özlüyündə aşağıdakıları ehtiva edir:

1. Ödənməli olan rüsumlar, malların tam və düzgün xarakteristikası, mənşəyi və dəyəri
2. Təhlükəsizlik tədbirləri ( qaçaqmalçılıq, tütün, narkotik, silah, terrorizmə qarşı mübarizə, saxta mallar)
3. Ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyə uyğunluq
4. Sağlamlıq tələbləri, fitosanitar, baytarlıq və keyfiyyət standartları

Əlavə olaraq gömrük orqanları mütəmadi olaraq polis və miqrasiya orqanlarının işinə dəstəkdir.

Dinamik iqtisadi mühitdə, Gömrük nəzarəti də cəld, efektiv və müasir risk idarəetmə texnikalarına əsaslanmalıdır ki, ticarətin dinamik axınını pozmasın. Effektiv nəzarət, lüzumsuz gecikmələr və ya sahibkarlara artıq xərclərdən qaçınmaq üçün aşağıda sadalanan metodlar istifadə olunur:

1. Məlumatların mübadiləsində sahibkarlarla ilə sıx əməkdaşlıq
2. Müasir İT texnikaları və alətlərdən istifadə
3. Yüksəs ixtisaslaşdırılmış müayinə və ekspertiza avadanlıqlarından istifadə
4. Səmərəli şəkildə risklərin idarə olunması

Respublikamızın iqtisadi maraqlarını qorumaqla, xarici ticarət dövriyyəsini birbaşa tənzimləyən və fiskal funksiyanı həyata keçirən gömrük orqanı eyni zamanda büdcəni tamamlayır, iqtisadi və sosial problemlərin həllinə kömək edir.

Gömrük nəzarətinin səmərəli və düzgün təşkilinə ölkəmizin idxal-ixrac əməliyyatlarını asanlaşdırmaq üçün, inkişaf etməkdə olan Azərbaycan Respublikasının gömrük gəlirlərindən yığımını maksimallaşdırmaq üçün və cəmiyyətin sosial müdafiəsini təmin etmək üçün ehtiyac duyulur. Pandemiya dövründə virusla mübarizə üçün lazım olan dərman və dezinfeksiya vasitələrinin gömrük nəzarətinin prosedurunun asanlaşdırılması da elə məhz cəmiyyəti qorumaq üçün atılan addımlardan biridir. COVID-19 pandemiyası ölkəmizdə və dünyada pandemiyaya qarşı cəmiyyəti mariflәndirmiş, insanları şəxsi gigiyenaya daha da diqqət yetirməyə vadar etmişdir. Eyni zamanda ölkələri də yeni bir pandemiyaya qarşı hazırlamış olmaqla yanaşı, gömrük orqanlarının pandemiya dövründə necə mühüm rol oynadığını göstərmişdir.

Ölkəmizin qlobal iqtisadi sistemə inteqrasiya olduğu bu dövrdə, dünya bazarının tələblərini qarşılamaq, öz iqtisadi maraqlarını və təhlükəsizliyini qorumaq naminə gömrük işinin təşkili hər daim müasir dövrün tələbərinə, tərəfdar çıxdığımız beynəlxalq konvenisiya və müqavilələrə uyğun təşkil edilməlidir. Pandemiya dövründə beynəlxalq təşkilatların təcrübələri və təklifləri ticarətin asanlaşdırılması üçün gömrük nəzarətinə və sisteminə yeniliklərlə bağlı olmuşdur Bu istiqamətdə işlərin görülməsi və xüsusən də fövqəladə vəziyyətlər zamanı dünya ictimaiyyətinin təcrübələrindən intensiv şəkildə istifadə edilməlidir.

COVID-19 pandemiyası göstərdi ki, fövqəladə vəziyyət halında lazım olan əmtəələr, xüsusən də tibbi avadanlıqlar, dərman və dezinfeksiya vasitələrinin dünya miqyasında qıtlığı yaşanır. Azərbaycan da belə çatışmamazlıqlardan əziyyət çəkmişdir. Bu prosesin təkrarlanmaması üçün ölkə pandemiya kimi fövqəladə vəziyyətlərə qarşı lazım olan əmtəələrə öz ehtiyacını qarşılaya bilməlidir. Bu məqsədlə, gömrük orqanları, xüsusən də gömrük nəzarətinin təşkili sahibkarlara və azad bazara dəstək olmaq üçün təşkil olunmalıdır ki, lazımi istehlak məhsullarının ölkə daxilində istehsalına təkan olsun. Pandemiya dövründə gömrük nəzarəti, xüsusən də dərman və dezinfeksiya vasitələri üçün tez və ağlabatan müddətdə keçirilməlidir ki, bazarda yarana biləcək kəskin qiymət artımlarının qarşısı alına bilsin.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dili

1. “Azərbaycan Respublikasının Gömrük Məcəlləsi”, Bakı, Qanun, 2012.

2. Azərbaycan Respublikasının Gömrük Qanunvericiliyi: I cild (2009). Bakı, “Ozan”, 704 səh.

3. Azərbaycan Respublikasının Gömrük Qanunvericiliyi: II cild (2009). Bakı, “Ozan”, 872 səh.

4. Azərbaycan Respublikasının Gömrük Qanunvericiliyi: III cild (2009). Bakı, “Oğuz Eli”, 684səh.

5. Nuriyev C.Q, Atakişiyev M.C, (2012), Gömrük işinin təşkili və idarə edilməsi. Bakı, “Apostrof”, 332 səh.

6. Nuriyev C.Q. (2002), Gömrük Hüququ, ali məktəblər üçün dərslik, Bakı, “Təfəkkür”, 326 səh.

7. Heydərov K.F. (2000), Gömrük işinin əsasları, Bakı, "Azərbaycan Dövlət Nəşriyyatı", 356 səh.

8. Nuriyev C.Q., Əliyev A.Ə., Atakişiyev M.C. (2018), Gömrük işinin təşkili və idarə edilməsi, Bakı, "Azərnəşr", 217 səh.

9. Əliyev A.Ə. (2003), Gömrük işi və dünya iqtisadiyyatının inkişafı, Bakı, "Çaşıoğlu", 240 səh.

10. Şəkərəliyev A.Ş., Nuriyev C.Q., Əliyev A.Ə. (2003), Gömrük işinin təşkili və idarə edilməsi, ali məktəblər üçün dərslik, Bakı, Qanun, 286 səh.

11. Əliyev A.Ə. (2002), "Gömrük işi və dünya iqtisadiyyatının inkişafı", Bakı, Çaşıoğlu, 236 səh.

**İngilis dili**

1. Mr.Michael Keen (2003), Changing Customs, "İnternational Monetary Fund" 201 p.

2. Michael Irvine & Daniel Coombs & Julianne Skarha & Brandon del Pozo & Josiah Rich & Faye Taxman & Traci C. Green , "Modeling COVID-19 and Its Impacts on U.S. Immigration and Customs Enforcement (ICE) Detention Facilities, 2020", J Urban Health, 2020, vol. 97, 439–447 p.

3. Drobot, E.V.Klevleeva, A.R.Afonin, P.N.Gamidullaev, "Risk Management in Customs Control", Ekonomika Regiona, 2017, iss.2, 550-558 p.

4. Tuccori, M., Convertino, I., Ferraro, S., "The Impact of the COVID-19 "Infodemic" on Drug-Utilization Behaviors: Implications for Pharmacovigilance", Drug Saf ,2020,vol.43, 699–709 p.

**5.** Geourjon, Anne-Marie, Laporte, Bertrand, " Risk management for targeting customs controls in developing countries: a risky venture for revenue performance ?", Public Administration & Development; Chichester, 2005, vol.25, 105-114 p.

6. Rostow W. The World Economy since 1945: A Stylized Historical Analysis. Economic History Review, 2015, Vol. 38, No 2, pp. 264-274.

7. Stern A.M., Merkel H., “International efforts to control infectious diseases, 1851 to the present”, Journal of the American Medical Association, 2004, vol.292, 1474-1479 p.

8. Steven Pope, “Covid-19 and its impact on Customs and trade”, WCO News, 2020

9. Borrmann A., Fasbender K., Hartel H., Holthus M. Social Market Economy, Experiences in the Federal Republic of Germany and considerations on its transferability to developing countries Hamburg, 2014, p.71-72.

**Türk dili**

1. Gümrükler Genel Müdürlüğü , 20.03.2020 tarihli 53406947 sayılı Koronavirüs Tedbirleri Tam Beyanlı Yaygın Basitleştirilmiş Usul ve Varış Öncesi Gümrükleme konulu yazı

2. Recep Esnemez, (2017), Gümrük müşaviri kaleminden gümrük ve dış ticaret hakkında her şey, İstanbul, “BEKA”, 280 s.

3. Nazım Aksoy, “Türk E-ticaret ve lojistik sektörlerinde pandemi sürecinin etkileri üzerine hukuki bir değerlendirme”, Yaşar Hukuk dergisi, 2020, vol.2, 45-51 s.

4. Akçacı, T. ve Çınaroğlu M., “Yeni koronavirüs (covid-19) salgının lojistik ve ticarete etkisi”, Gaziantep University Journal of Social Sciences, 2020, Special Issue, 447-456 s.

5. Adıgüzel, M., “Covid-19 pandemisinin türkiye ekonomisine etkilerinin makroekonomik analizi”. İstanbul Ticaret Üniversitesi Sosyal Bilimler Dergisi, 2020, 19-37, 191-221 s.

**İnternet resursları**

1. **https://www.customs.gov.az/**
2. **https://www.stat.gov.az/**
3. **https://www.cbar.az/**
4. **https://koronavirusinfo.az/az**

5. **http://www.wcoomd.org/**
6. **https://www.who.int/**
7. **https://ec.europa.eu/info/index_en**
8. **https://www.cbp.gov/**
9. **https://covid19.who.int/**
10. https://covid19.ticaret.gov.tr/data/5e98a7ec13b8767bd0f19492/COVID-19_DTO_Bildirimleri.pdf
11. https://covid19.ticaret.gov.tr/data/5e98a7ec13b8767bd0f19492/COVID-19_DTO_Bildirimleri.pdf
12. https://ggm.ticaret.gov.tr/duyurular/gumruk-islemlerinde-sure-asimlarina-iliskin-duyuru.
13. https://www.mevzuat.gov.tr/mevzuat?MevzuatNo=13472&MevzuatTur=7&MevzuatTertip=5
14. https://ticaret.gov.tr/

## Cədvəllərin siyahısı

**Cədvəl 1:** İllər üzrə ticarət dövriyyəsi…………………………………………………….......18
**Cədvəl 2:** Xarici Ticarət dinamikası.........................................................................................18
**Cədvəl 3**: İdxalın coğrafi quruluşu……………………………………………………….......31

## Qrafiklərin siyahısı

**Qrafik 1:** Məhsul ixrac olunmuş ölkələr...................................................................................19
**Qrafik 2**: İxrac…………………….......................................................................................25
**Qrafik 3:** Qeyri neft-qaz məhsullarının ixracı……………………………………………….....26
**Qrafik 4:** İdxal.............................................................................................................................30
**Qrafik 6:** 2020-2021-ci illər arasında tibbi vasitələrin qlobal ticarətində böyümə……………......57
**Qrafik 7:** Tibbi malların ticarətdə payı……………………………………………………......59

**Qrafik 8:** İxrac qadağaları və məhdudiyyətləri tətbiq edən ölkələrin və ayrı-ayrı gömrük ərazilərinin məhsulların kateqoriyaları üzrə sayı……………………………………………......62

## Şəkillərin siyahısı

**Şəkil 1:** COVID-19 müvəqqəti ixrac məhdudiyyəti tətbiq edən ölkələr

.........................................................................................................................................61